


## Əli Əsədov MDB-nin iclasında çıxış edib

*İyunun 8-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Hökumət Başçıları Şurasının iclası keçirilib. Nazirlər Kabinetindən "Unikal"a verilən məlumata görə, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib. İclasdan əvvəl...*

*Səh.3*


# UNİKAL

№22 (2156) 9 iyun 2023-cü il

Qiyməti 50 qəpik



Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## Taleh Kazımov da tənqid hədəfinə çevrilir

### Elman Rüstəmovun zamanından qalan problemlər nə vaxt həll ediləcək, ya da həll ediləcəkmi?

*Yola salmaq üzrə olduğumuz həftə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində "Mərkəzi Bank haqqında" Qanuna dəyişikliklərin müzakirəsi keçirildi və həmin müzakirələr zamanı ölkənin bank sektoru ilə bağlı bir sıra vacib problemlər dilə gətirildi. Deputatların səsləndirdiyi tənqidlər əslində sözügedən sektorda çoxdan müşahidə edilən və keçmiş baş bankir Elman Rüstəmovun ya həll edə bilmədiyi, ya da həll etmək istəmədiyi nöqsanlarla bağlı idi. (Hərçənd, Taleh Kazımov Mərkəzi Bankın rəhbərliyinə gətirildikdən sonra bu nöqsanların, problemlərin qısa vaxtda aradan qaldırılacağına dair cəmiyyətdə ciddi gözləntilər yaranmışdı).*

Səh.8



Səh.9

## Ermənistan anlaşmağa məhkumdur: Ya danışıqla, ya da zorla...

## "Erməni tərəfi sülhdən yayınmaq üçün müxtəlif təxribatlar törədə bilər"




*Hərbi ekspert Ədalət Verdiyev "Unikal"a müsahibə verib. O, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin atəşə tutulmasının səbəblərindən, Ermənistan tərəfinin sülh danışıqlarını uzatmasından və Ordumuzun antiterror əməliyyatı...*

Səh.4

## Mustafa Abbasbəyliyə milyonluq tenderlərlə bağlı asan suallar



*Bu günlərdə Dövlət Məşğulluq Agentliyi Publik Hüquqi Şəxsi Quba Peşə Hazırlığı Mərkəzində İT infrastrukturun (sistemlərin) qurulmasına lazım olan avadanlıqlar, proqram təminatları və onların quraşdırılması (sazlanması) işlərinin satın alınması ilə bağlı təxminən 1 milyon manatlıq tenderə...*

Səh.6

## "Azərbaycan sərhəd təhlükəsizliyinə xüsusi önəm verir" - Məhərrəm Əliyev



*"Azərbaycan sərhəd təhlükəsizliyi məsələlərinə xüsusi önəm verir". "Unikal" xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyev deyib.*

Səh.4

# "Ətrafımdakı bu yaşayış tərzindən ürəyim bulanır" - Günel Zeynalova



***"Hamı ilk əvvəl öz önündəki pislikləri təmizləsin, sonra başkasının həyatına və ya görünüşünə söz atsın. Oldu?".***

Bu sözləri müğənni Günel Zeynalova görünüşünü tənqid edənlərə deyib. Yeni fotolarını yayımlayan sənətçiyə hər kəs yenidən plastik əməliyyat etdirdiyini yazıb. günel isə bu iddiaların yalan olduğunu, plastik əməliyyat etdirmədiyini vurğulayıb:

"Mənə ona-buna bənzəyirsən deyənlər: Siz mənim anamı görmüsünüz? Anam da estetik etdirib? İçinizdəki pislikləri yuyun, ətrafımdakı yalan, yanlış yaşayış tərzindən ürəyim bulanır. Xəbəriniz də var, qəbul etmisiniz də. Özünüzə gəlin. Xətası ilə, səvabı ilə gözəllər gözəliyəm. Çatlayın".

# Müğənni Mina keçmiş ərindən danışdı: Yalanının üstü açıldı



***"Anlaşa bilmədik, xasiyyətimiz uyğun gəlmədi, ayrılmağa qərar verdik".***

Bu sözləri müğənni Mina Hüseyn "Elgizlə izlə" verilişində qonaq olarkən deyib. O, keçmiş həyat yoldaşı ilə bağlı ünvanlanan suallara aydınlıq gətirib: "1 ilə yaxın idi birlikdəydik. Sonra evlənməyə qərar verdik. Subay idi, evlənməmişdi. İki yaş da məndən balaca idi".

Mina deyib ki, ümumiyyətlə insan gərək həyat yoldaşı olanda yalan danışmasın: "Sən niyə yalandan deyəsən ki, mənim evim belə, işim belə. Sən işləmə, 8 ay bir qəpiksiz qal, mən sənə baxacam. Sonra mən dedim bəs niyə yalan danışdın. Dedi ki, belə olmasaydı, sən mənə ərə gəlməyəcəkdin. Mən də ayrılmağa qərar verdim. Bu müddət ərzində də qazandığı var idi. Onunla dolanırdıq. Sonra üstü açıldı yalanının. O, mənə yalan deməsəydi, mən özüm də işləyib onu saxlayardım".

Gənc müğənni sonda qeyd edib ki, ailəsinə görə, hər şeyə razı olub: "Sənətimə xətt çəkdim. Ailəm olsun deyə, hər şeyə razı oldum. Ancaq yalan üstündə ailə qurulmaz. Mən də boşandım".



# Flora Kərimova ilə Ülviyyə Alovlu arasındakı məhkəmə bitdi

***Xalq artisti Flora Kərimova və jurnalist Ülviyyə Alovlu arasındakı məhkəmə prosesi sona çatıb.***

Bu barədə jurnalist sosial şəbəkədə məlumat yayıb. O, sənətçinin qaldırdığı vəsatətin əsassız olduğunu bildirib: "Binəqədi Rayon Məhkəməsindən gəlirəm. Bilirsiniz ki, Xalq artisti Flora Kərimova xüsusi ittiham qaydasında məhkəməyə şikayət etmişdi. Bildirmişdi ki, guya mən cinayət işləmişəm. Əvvəldən yalnış müraciət ilə gəlmişdi. Beş ilə yaxın idi ki, məhkəmə işi qanunsuz olaraq davam edirdi. Bu gün nəhayət ki, məhkəmə işinə son qoyuldu. Flora Kərimova kifayət qədər bu mövzu ilə bağlı vəsatət qaldırmışdı. Sonuncu iclas oldu və qalib gəldim. Ona görə ki, tamamilə əsassız iddia və vaxtı keçmiş məsələ idi".

Qeyd edək ki, F.Kərimovanın təhqir və böhtanlardan şikayətinə əsasən, Ü.Alovlu qarşı xüsusi ittiham qaydasında Cinayət Məcəlləsinin 147 və 148 maddələri ilə cinayət işi başlanılmışdı.

# Gülayın gizli biznesi bu imiş - Özü açıqladı



***Aparıcı Vüsalə Əlizadə müğənni Gülay Zeynallının gizli biznesinin olduğunu bildirib.***

Vüsalənin verilişində sənətçiyə "mal-qara biznesin var idi, ondan danış" sualından müğənni əvvəlcə çaşğınlıq keçirib.

Daha sonra isə sualı belə cavablandırıb: "Ailə arasında olan söhbət sizə necə çatıb? Neçə il öncə bacıma dedim ki, gəl mal-qara alım verim, saxla həyətində, uşaqlar baxar. Fikirləşdim ki, mal-heyvan tez artır. O da razılaşdı. Bir neçə baş qoyun-quzu alıb verdim. Amma ikigündənbir soruşurdum ki, nə oldu, artmadı qoyunların sayı? Onlar da axırda bezib dedilər, gəl apar bu qoyunlarını, bezdik. İki günə qoyun sayı artar?".

# Elzanın qalmaqal yaşadığı gəncə Rozadan sürpriz



***Müğənni Roza Zərgərli növbəti addımı ilə diqqət çəkib.***

"Unikal" olay-a istinadən xəbər verir ki,ifaçı "Bizimləsən" verilişinin iştirakçısı, Əməkdar artist Elza Seyidcahan ilə qalmaqal yaşayan Roman İzmayılova doğum günü sürprizi edib. Efirə tortla gələn Roza müğənni ilə tanışlığının 1 il bundan əvvəl başladığını bildirib. Daha sonra Zərgərli ilə İzmayilov duet oxuyub.

Qeyd edək ki, ötən günlərdə Roman geyiminə irad bildirən Seyidcahana sərt cavab vermiş, onların arasında gırginlik yaşanmışdı.

Onu da xatırladaq ki, Roza və Elza uzun müddətdir ki, küsülüdür.

# "Şuşa Bəyannaməsi strateji əməkdaşlığın perspektivini təmin edir"



***2021-ci ildə Müstəqil Azərbaycan dövlətinin Qurtuluş günündə, İyun ayının 15-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan qədim Azərbaycan şəhəri, türk mədəniyyətinin beşiyi olan Şuşada, sözün əsl mənasında, tarix salnaməsini yazdılar. Ulu Öndərin dühasından doğan Qurtuluş yolunun bu gün bütün türk dünyasının yeni formatda birliyinə aparan bir başlanğıc olması Heydər Əliyev siyasi kursunun bundan sonra da bütün bəşəriyyətin rifahına, inkişafına misilsiz töhfələr verəcəyini göstərir.***

Qardaşlığın yeni tarixi mərhələsi-Şuşa Bəyannaməsi imzalandı və hər iki ölkənin parlamentində ratifikasiya olundu. Mən çox qürur duyuram ki, Bəyənnamənin iki ölkənin liderinin Şuşada imzalandığı günün və parlamentdə bu bəyənatın qəbul olunduğu günün iştirakçısı oldum. Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyənin qardaşlığını bütün dünyaya bildirən bir mesajdır və iki qardaş ölkənin hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliyinin hüquqi əsasıdır. Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və Ulu Öndər Heydər Əliyevin "Türkiyə və Azərbaycan bir millət iki dövlətdir" kəlamlarının da əksini tapdığı və tarixə əsaslanan Şuşa Bəyannaməsi iki qardaş ölkənin müttəfiqliyinin və keyfiyyətcə daha yüksək işbirliyinin rəsmi təminatıdır. Strateji əhəmiyyət kəsb edən Bəyannamədə bir çox önəmli məsələlər - beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti öz əksini tapıb. Bəyannamədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşməsinə, regional inteqrasiyaya və təhlükəsizliyə xidmət edir, eyni zamanda, Azərbaycanın və Türkiyənin milli gücünün artmasını, dünyada söz və nüfuz sahibi kimi mövqeyinin daha da möhkəmlənməsini şərtləndirir. Həmçinin Bəyannamədə enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilir. Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bəyannamədə o cümlədən, Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsində Türkiyə ilə Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi həm də türk dünyasının birləşməsi, regionun təhlükəsizliyi və sosial-iqtisadi inkişafı baxımından böyük əhəmiyyət kəsb edir

Şuşa Bəyannaməsi əhatəli sülhə yol açır. Şuşa Bəyannaməsi bölgədə inteqrasiya proseslərini stimullaşdırır. Bəyannamə Qarabağ ərazisində yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının inteqrasiyası üçün əlavə imkanlar yaradır. Həmçinin Şuşa şəhərində qardaş Türkiyənin baş konsulluğunun açılmasına dair qəbul olunmuş qərar Türkiyənin bu bölgədə mövqeyinin və gücünün möhkəmlənməsi kimi dəyərləndirilməlidir.

Müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələlərinin Bəyannamədə əks olunması tarixi nailiyyətdir. Ölkələr bundan sonra da bir-birinin təhlükəsizliyini təmin edəcək. Müdafiə sənayesi sahəsində əlaqələrin inkişafı ölkələrin hərbi qüdrətini artıracaqdır. İkinci Qarabağ müharibəsində pilotsuz uçuş aparatları böyük rol oynayıblar. Azərbaycan bu prosesdə istehsal mərkəzi kimi inkişaf edəcəkdir. İki qardaş ölkə həm də iki dövlətin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsinin təşviq olunması ilə bağlı da razılığa gəldi. Ümumilikdə Şuşa Bəyannaməsi ilə Azərbaycanla Türkiyə strateji müttəfiqlik münasibətlərini daha da dərinləşdirərkən bunu üçüncü tərəfə qarşı deyil, sadəcə öz təhlükəsizliyi baxımından zəruri hesab edərək qərarlaşdırır.

***Əhliman Əmiraslanov,***
***MM Səhiyyə Komitəsinin sədri***

# Taleh Kazımov da tənqid hədəfinə çevrilir

## Elman Rüstəmovun zamanından qalan problemlər nə vaxt həll ediləcək, ya da həll ediləcəkmi?

***Yola salmaq üzrə olduğumuz həftə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində "Mərkəzi Bank haqqında" Qanuna dəyişikliklərin müzakirəsi keçirildi və həmin müzakirələr zamanı ölkənin bank sektoru ilə bağlı bir sıra vacib problemlər dilə gətirildi.***

Deputatların səsləndirdiyi tənqidlər əslində sözügedən sektorda çoxdan müşahidə edilən və keçmiş baş bankir Elman Rüstəmovun ya həll edə bilmədiyi, ya da həll etmək istəmədiyi nöqsanlarla bağlı idi. (Hərçənd, Taleh Kazımov Mərkəzi Bankın rəhbərliyinə gətirildikdən sonra bu nöqsanların, problemlərin qısa vaxtda aradan qaldırılacağına dair cəmiyyətdə ciddi gözləntilər yaranmışdı).



Məsələn, iqtisadçı deputat Əli Məsimli açıq şəkildə bildirdi ki, Azərbaycanda bank faizləri soyğunçu xarakter daşıyır. Sitat: "Hazırda ölkədə kredit faizləri ikirəqəmlidir və bu vəsaitləri real sektora qoymaq mümkün deyil. Bunlar ancaq ticarətdə 2-3 aylıq müddətdə effekt göstərə bilər. Amma istehsala qoyula bilməz. Bu baxımdan Azərbaycan Mərkəzi Bankı inflyasiyanı endirirsə, bank faizləri də aşağı enməlidir".

Başqa bir tənqid mövsuzu isə Mərkəzi Bankın uçot dərəcəsindən beynəlxalq təcrübədə olduğu kimi inflyasiyaya qarşı rıçaq kimi istifadə etmək istəyinə yönəlmişdi. Lakin deputat bildirdi ki, bizdə həmin mexanizm işləmir. Sitat: "Əgər qiymət artımının qarşısını almaq üçün sərt monetar siyasətə keçiləcəksə, bu, ümumi daxili məhsulun (ÜDM) artımını 1,8 %-dən aşağı salacaq, əlavə ciddi problemlər yaradacaq. Heç Azərbaycanda inflyasiya tam olaraq monetar amillərlə bağlı deyil".

Daha bir problemli məqam isə Azərbaycanda bankomatlardan pulu nağdlaşdırmaq üçün faiz dərəcələrinin qeyri-standart olması ilə bağlıdır. İllərdir iqtisadçı ekspertlər bu məsələnin də müsbət həllində israr edirlər. Lakin Mərkəzi Bankın sabiq rəhbəri Elman Rüstəmov bu istiqamətdə də hər hansı addım atmadı. Deputat Rüfət Quliyev "Mərkəzi Bank haqqında" Qanuna dəyişikliklərin müzakirəsində haqlı olaraq problemi gündəmə gətirdi. Sitat: "Bu faizlərin bütün banklar tərəfindən standart olaraq 1,5 % səviyyəsində müəyyənləşdirilməsi vətəndaşların işini asanlaşdıra bilər. Belə ki, rayonlarda vətəndaş kartdan pul çıxarmaq üçün, bəzi hallarda şəhərin o başında yerləşən bankın bankomatına çatmaq üçün 3 avtobus dəyişməli olur. Bu da insanları yorur. Amma nağdlaşdırma faizi eyni olsa, vətəndaşlar yaxınlıqda yerləşən hər bir bankomatdan pulunu çıxara bilər".

Bank sektorunda çoxdandır müzakirə və mübahisə predmeti olan başqa bir məqam bankların gözlənilməz şəkildə qapadılması ilə bağlıdır. Son olaraq "Günay Bank"ın ictimaiyyətdə proqnozlaşdırılmadığı halda bağlanması həmin müzakirə və mübahisələri yenidən alovlandırdı. Sözügedən məsələ keçmiş baş bankir Elman Rüstəmovu mediada və cəmiyyətdə tənqid hədəfinə çıxaran əsas mövzulardan biri idi. Mərkəzi Bank rəhbərliyinə Taleh Kazımov gətirildikdən sonra ümid edilirdi ki, bəs etdiyimiz "ənənə" artıq keçmişdə qalacaq. Hətta Kazımovun bu posta namizədliyi irəli sürülərkən bir sıra mütəxəssislər onun bank sektorunda stabilləşmə tərəfdarı olduğu və başqa çıxış yolu qalmayanadək hər hansı bankın bağlanmasına isti yanaşmadığı deyilirdi. Lakin "Günay Bank"ın ləğvindən sonra buna şübhə edənlər çoxalıb. Üstəlik, iqtisadçılar, deputatlar bu fikirdədirlər ki, zəif bankların müflisləşməsi deyil, sağlamlaşdırılması daha prioritet olmalıdır. Yəni, Elman Rüstəmovun yanlış strategiyasından əl çəkilməli, bank bağlamaq ilk seçim kimi qiymətləndirilməməlidir.

Mərkəzi Bankın son vaxtlar tənqid edildiyi məsələlərdən biri də sığorta agentləri ilə bağlı problemlərdir. Bu yaxınlarda sığorta məsələləri üzrə ekspert İlkin İbrahimov açıq şəkildə bildirdi ki, Mərkəzi Bank sığorta agentlərinə lisenziya verən tərəf olaraq həmin problemlərin həllində səriştə nümayiş etdirə bilmir. Sitat: "Bu gün avtonəqliyyat vasitələrinin mülki məsuliyyətinin icbari sığortası üzrə ödənişlərində sığorta agentlərinin komissiyalarını sığorta şirkətləri vermir. Qanunda qeyd olunur ki, 15 faizədək sığorta agentlərinə ödəniş verilə bilər. "Verilə bilər" sözünü rəhbər tutan sığorta şirkətləri də bildirir ki, o zaman biz vermirik. Bu məsələni Mərkəzi Bank həll etməlidir, çünki tənzimləyici qurumdur. Eyni zamanda antiinhisarla bağlı siyasəti həyata keçirir. Kim ki, burada birləşmə yaradaraq agentlərin komissiyasını ödəmirsə, bu məsələni də Mərkəzi Bank tənzimləməlidir, ancaq demək olar ki, heç bir tənzimləmə işləri aparmır..."

Bir sözlə həm deputatların, həm iqtisadçı ekspertlərin çıxışlarından, açıqlamalarından aydın görünür ki, Azərbaycanın bank sektorunda Elman Rüstəmovun zamanından qalan çox sayda problem hələ də öz həllini gözləyir. Üstəlik, bu çıxışlardan, açıqlamalardan Mərkəzi Bankın yeni rəhbərliyinə dolayı yolla tənqidi mesajlar göndərildiyini söyləmək mümkündür. Əgər qarşıdakı illərdə də həmin problemlər qalmağa davam edərsə, biz həmin tənqidlərin açıq müstəviyə keçməsinə şahidlik edə bilərik.

Eynilə Elman Rüstəmov təcrübəsində olduğu kimi...

***Toğrul Əliyev***

# Ermənistan anlaşmağa məhkumdur: Ya danışıqla, ya da zorla...

## Əgər Ermənistan Azərbaycanın delimitasiya, Zəngəzur dəhlizinin açılması tələbləri ilə razılaşmasa, onda hərbi və kəşfiyyat ssenariləri dövriyyəyə salınacaq



***Xəbər verdiyimiz kimi, iyunun 7-si saat 22:45-də Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Brun yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.***

İyunun 8-i saat 07:40-da isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Şuşa şəhəri istiqamətində yerləşən mövqeləri də atəşə tutulub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb. Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri kənd təsərrüfatı işləri adı altında Ordumuzun Xocalı rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

Diqqətçəkən məqam odur ki, Ermənistan tərəfi son bir ay ərzində sülh istiqamətində danışıqlar prosesinin intensivləşdirilməsində iştirak etsə də, təmas xəttində təxribatlar törətməkdə davam edir.

Bu barədə fikirlərini "Unikal"la bölüşən siyasi şərhçi Aqşin Kərimov deyib ki, Azərbaycanla Ermənistan arasındakı münasibətlər xoşbəxt və firavan axara girməyə cəhd göstərir, lakin bunun üçün lazım olan hərtərəfli sülh müqaviləsi nə yaxındadır, nə də uzaqda. Onun qənaətincə, sülh sazişi layihəsinin indiki koordinatı da sürüşkəndir, o gah Qərbə, gah da Rusiyaya doğru, belə demək mümkündürsə, əl dəyişdirir: "Hərçənd, 2020-ci ilin 10 Noyabr Bəyanatından sonra sülhə doğru xeyli irəliləyiş əldə edilib, Ermənistan bəzi ritorikalarına redaktələr edib, Azərbaycan isə hərblə sülhün hibridi ilə strateji mövqelərini sürətlə qabağa çəkib. Ermənistan mövqeyini köklü dəyişməklə sülh üçün düzgün imkanlar aramalıdır, sülhü müvəqqəti xarakter kimi görməməli və onu revanşizm üçün hazırlanacaq bazaya çevirməməlidir. İrəvanın tutumunda isə revanşizmdən tamamilə yox, qismən imtinaya işarələr verilir, bunu Ermənistanın sülh modeli üçün beynəlxalq mexanizmlər axtarmasında, gah Qərbin, gah da Rusiyanın əlinə oynayan addımlarında görmək çətin deyil. Aydındır ki, Azərbaycanın sülhə dair şərtlər çərçivəsi də genişdir, Bakı sərhədlərin delimitasiyasından tutmuş, Zəngəzur dəhlizi layihəsi, Qərbi azərbaycanlıların tarixi torpaqlarına geri dönüşünü vahid sülh paketində cəmləşdirməyi hədəfləyə bilər. Qərbi azərbaycanlıların qayıdışı Zəngəzur dəhlizinin açılması və sərhədlərin delimitasiyasından sonrakı mərhələdir, lakin nəzəri olaraq paralel xüsusiyyətlərə də malikdir. Qərbi azərbaycanlıların qayıdışı, ən azından, ona görə lazımdır ki, Bakı Ermənistandakı azərbaycanlı icmasını bərpa edir və onların hüquqlarının, azadlıqlarının təminatçısına çevrilir, beləliklə, İrəvan üzərində humanitar-strateji təzyiq qazanır. Ancaq Qərbi azərbaycanlıların köçünün hansı ssenaridən sonra baş tutacağı da önəmlidir, əgər Ermənistan Bakının şərtləri ilə razılaşsa, onda köç prosesi sülhün elementi olaraq qəbul ediləcək".

A.Kərimov hesab edir ki, əgər Ermənistan Azərbaycanın delimitasiya, Zəngəzur dəhlizinin açılması tələbləri ilə razılaşmasa, onda hərbi, kəşfiyyat ssenariləri dövriyyəyə salınacaq və İrəvan yekunda nəticələrlə zorla razılaşmalı olacaq: "Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında danışıqların intensivləşməsinə baxmayaraq, cari hərbi vəziyyət proseslərin hansı istiqamətə gedəcəyini qiymətləndirməyə imkan verir. Bunun üçün Kişineuda keçirilən danışıqlardan sonra Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatlardakı izlərə baxmaq lazımdır. Ermənistan sərhədin bir neçə istiqamətində atəş açır, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazilərindəki separatçılar isə təxribatlara ara vermirlər. Bu vəziyyətin yaradılması sülh modeli üçün qeyri-adekvatdır, gələcək hərbi eskalasiya risklərini artırır, hərçənd, danışıqlar üçün diplomatik proseslərin canlandırılması prosesi arxa planda deyil. Azərbaycanın hərbi-siyasi, diplomatik, strateji üstünlüklərinin açıq-aşkar reallığı ona həm sülh danışıqlarında, həm də mümkün eskalasiya variantlarında nailiyyətlər qazandırır - buraya ərazi uğurları da daxildir. Ən azından, 2021-ci ilin noyabrında və 2022-ci ilin sentyabrında sərhəddə baş vermiş toqquşmalardan sonra formalaşan mənzərədən belə qənaətə gəlmək olur".

Müsahibimiz onu da vurğulayıb ki, Azərbaycanla Ermənistan arasında yekun razılaşmaya doğru hərəkət sürət qazansa da, regional sütunların yerindən tərpədilməsi cəhdləri ərşə çəkilməyəcək: Beləliklə, Ermənistan:

- Gah Fransanın, gah İranın regional gündəminə arxayın olub, sülhə zidd olacaq mövqelərdən qaçmadıqca,
- Üstəgəl Rusiyanın, Qərbin regional gündəmlərinə həm bel bağlayıb, həm də ona arxa çevirmək prinsipindən çəkinmədikcə regionda mütləq sülhdən danışmaq çox tezdir.

İndi Azərbaycan-Ermənistan liderləri iyulun 21-i üçün Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşkil edəcəyi Brüssel görüşünə hazırlaşırlar. Liderlərin gündəmi ilə regionda cərəyan edən hadisələr, sərhəddəki insidentlər paralel qoldur, təbii ki, Azərbaycan tərəfinin itirəcəyi nəsə yoxdur, əksinə, qazana biləcəyi çoxlu paketlər var. İndi Qarabağdakı erməni separatçıları yola gətirmək və ya zor gücü ilə tabe etdirmək daha asandır, çünki artıq onların silah təminatı yolu qapalıdır, Azərbaycan sərhədçiləri Laçın yolunun Ermənistanla birləşən nöqtəsində keşik çəkərək Qarabağa giriş-çıxış üzərində hüquqi nəzarət həyata keçirirlər. Sərhədlə bağlı isə reallıqlar və şərtlər üstüstə düşmür və bu, vəziyyəti mürəkkəbləşdirir".

Politoloq Əziz Əlibəyli açıqlamasında bildirib ki, davamlı şəkildə atəşkəsin pozulması erməni tərəfin əlində olan silahların numayişidir: "Yəni, bir ordu təəssüratı yaratmaq, son əldə etdiyi silahlarla Azərbaycanın təhlükəsizliyini təhdid etmək və özlərini güclü göstəməyə xidmət edir".

Ə.Əlibəyli deyib ki, baş verənlər dərhal xəbər istehsalıdır: "Çünki atəşkəsin pozulması təhlükəsizliyin kövrək olması və burda ittiham edəcək tərəfin meydana çıxması anlamına gəlir. Həmçinin bu, daim gündəmdə qalmağa xidmət edir. Şübhəsiz, tərəf olaraq Rusiya sülhməramlılarının dairəsinə aid ərazidə fəaliyyət göstərən separatçılara yönəlik bir leqallaşdırma var bu xəbərlərdə. Onları tərəf kimi təqdim etmək, Azərbaycana qarşı dayanan güc kimi ortaya çıxarmaq və bunun üzərindən də onlara leqal bir görüntü yaratmağa xidmət edir". Onun sözlərinə görə, biz hamımız bütöv ölçüdə sülh müqaviləsindən danışırıqsa, bu da prosesə zərbənin mühüm bir hissəsidir. Politoloq qeyd edib ki, sülh müqaviləsi Ermənistanla Azərbaycan arasında gedən prosesin nəticələnməsinə aparıb çıxaracaq yekun sənəddir: "Amma Qarabağ erməniləri hazırda Ermənistanın dövlət rəhbərlərinə, siyasətinə etiraz etməkdədirlər. Əlbəttə ki, hadisələrin Rusiya sülhməramlılarının fəaliyyət ərazisində baş verməsi onların nəzarətinin zəifliyini, tərəf olaraq fərqini göstərir".

***M.İbrahimli***



# İqtisadi İslahatlar Mərkəzində yeni təyinatlar

***Prezident İlham Əliyevin sərəncamları ilə bir sıra dövlət proqramlarının monitorinq və qiymətləndirilməsi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə (İİTKM) həvalə edilib.***

Etimadı doğrultmaq və mühüm dövlət proqramlarının, strategiyaların, tədbirlər planlarının monitorinq və qiymətləndirilməsini vaxtında yüksək keyfiyyətlə yerinə yetirmək üçün qurumun kadr potensialı gücləndirilir, qabaqcıl beynəlxalq təcrübəyə əsasən, monitorinq-qiymətləndirmə institutu rəqəmsal texnologiyalardan istifadə edilməklə təkmilləşdirilir.

Bu barədə "Unikal"a Mərkəzdən məlumat verilib. Məlumata görə, Məhz İİTKM-də monitorinq və qiymətləndirmə sahəsində həyata keçirilən kadr təyinatı və struktur islahatları, həmçinin idarəetmə texnologiyaları da ali rəhbərliyin tapşırıqlarının yüksək səviyyədə yerinə yetirilməsinə, bu sahədə rəqəmsal həllərin tətbiqi məqsədinə xidmət edir. Yeni kadr təyinatları çərçivəsində Almaniyanın Bonn Universitetində doktorantura təhsili almış, Mərkəzin şöbə müdiri Rəşad Hüseynov monitorinq və qiymətləndirmə üzrə icraçı direktorun müavini təyin edilib.

Həmçinin İİTKM-də aparılan struktur islahatları nəticəsində Monitorinq və qiymətləndirmə şöbəsinin tərkibində üç yeni sektor yaradılıb, yeni təyinatlarla bu şöbənin potensialı gücləndirilib. Belə ki, hüquq üzrə fəlsəfə doktoru İlqar Babayev şöbənin müdir müavini təyin olunub. İstanbul Ticarət Universitetində təqaüd ilə beynəlxalq ticarət və Avropa Birliyi hüququ ixtisası üzrə doktorantura təhsil alan İ.Babayev bundan əvvəl Təhsil Nazirliyi sistemində bir sıra vəzifələrdə çalışıb.

Eyni zamanda iqtisad üzrə fəlsəfə doktoru Emil Qasımov şöbənin Sahəvi proqramların monitorinqi sektoruna, iqtisad üzrə fəlsəfə doktoru Təranə Salıfova Sosial-iqtisadi proqramların monitorinqi sektoruna rəhbər təyin olunub. Onların hər ikisi daha əvvəl İqtisadiyyat Nazirliyinin strukturlarında fəaliyyət göstərib.

Qeyd edilənlərlə yanaşı, ADA Universitetinin məzunları Şəbnəm Məmmədli və Elşən Yusifli, həmçinin Prezident yanında Dövlət İdarəçilik Akademiyasının məzunu, Prezident təqaüdçüsü Coşqun Cəfərov da Monitorinq və qiymətləndirmə şöbəsinin baş məsləhətçisi vəzifələrinə təyinat alıblar.

İİTKM-də monitorinq və qiymətləndirmə institutu müasir idarəetmə texnologiyaları, rəqəmsal həllər, qabaqcıl nəticə əsaslı metodologiya və bacarıqların inkişaf etdirilməsi ilə yüksək səviyyədə təşkil edilib.

# Prezidentdən "ASAN Kommunal" mərkəzləri ilə bağlı fərman



***"ASAN Kommunal" mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 may tarixli Fərmanında dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev fərman imzalayıb.

Fərmana əsasən, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti fiziki və hüquqi şəxslərə xidmət göstərilməsi sahəsində olan xidmətlərini "ASAN Kommunal" mərkəzlərində həyata keçirəcək.

# Bu məhsulların idxalı ƏDV-dən azad edildi

***Prezident İlham Əliyev "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nda dəyişiklik edilməsi haqqında fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmana əsasən, xaricdə çap olunmuş pasport və yeni nəsil şəxsiyyət vəsiqəsi blanklarının idxalı ƏDV-dən azad edilib.

# Parlamentdə Qərbi Azərbaycanla bağlı dinləmə keçiriləcək

***İyunun 12-də Milli Məclisdə parlamentin Mədəniyyət komitəsinin təşkilatçılığı ilə "Qərbi Azərbaycan: soyqırıma məruz qalan tarixi-mədəni irsimiz. Qərbi Azərbaycanın tarixi və mədəni irsinin dirçəlişi" mövzusunda ictimai dinləmə keçiriləcək.***



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, dinləmədə Milli Məclisin deputatları, mövzu ilə əlaqədar aidiyyəti qurumların rəhbərləri, alim və tədqiqatçılar, media orqanlarının rəhbər şəxsləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edəcəklər.

Tədbir iştirakçıları Qərbi Azərbaycanda tarixi-mədəni irsimizin soyqırıma məruz qalması, bu kimi halların beynəlxalq ictimaiyyətə çatdırılması, bu bölgədə Azərbaycanın tarixi və mədəni irsinin bərpası və dirçəlişi ilə bağlı fikirlərini bölüşəcəklər, təkliflərini verəcəklər.

# XİN-dən Qriqoryana cavab: "Öhdəlikləri yerinə yetirməyi tələb edirik"

***8 iyun 2023-cü il tarixində Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Minskdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iclasında çıxışı zamanı guya Azərbaycanın Ermənistanla sərhəddə və Laçın yolunda vəziyyəti gərginləşdirdiyi, güc tətbiqi siyasəti yürütdüyü, Qarabağ bölgəsində yaşayan erməni sakinlərə qarşı etnik təmizləmə həyata keçirmək niyyətində olduğu barədə səsləndirdiyi iddiaların heç bir əsası yoxdur və bu Ermənistan tərəfinin növbəti manipulyasiyasıdır.***



Bu barədə "Unikal"a Azərbaycan XİN-dən bildirilib.

Qeyd edilib ki, Ermənistan tərəfinin öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etmək əvəzinə erməni sakinlərin reinteqrasiyası kimi daxili məsələlərə müdaxilə cəhdlərinə hələ də son qoymaması bu ölkənin bölgədə sülh və sabitlikdə maraqlı olmadığını göstərir: "Misal olaraq, Ermənistan Təhlükəsizlik Şurasının katibinə xatırladırıq ki, Ermənistan Üçtərəfli bəyanat çərçivəsində öhdəliklərinə zidd olaraq erməni silahlı qüvvələrini Azərbaycan ərazisindən tam olaraq hələ də çıxarmayıb və bu qüvvələrin Azərbaycan ərazisində mövcudluğu beynəlxalq hüququn bütün norma və prinsiplərinin pozuntusu olmaqla yanaşı, ciddi təhdid mənbəyidir.

Azərbaycanın Laçın sərhəd buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakinlərin Azərbaycan qanunvericiliyinə və müvafiq prosedurlara əməl etməklə hər iki istiqamətdə sərbəst şəkildə keçməsi bir daha göstərir ki, Ermənistanın reinteqrasiya prosesinə maneçilik cəhdləri uğursuzluğa düçar olub.

Ermənistanı bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına xələl gətirən təhlükəli ritorikadan çəkinməyə, əsassız yerə Azərbaycanı ittiham etmək, beynəlxalq ictimaiyyəti yayındırmaq cəhdlərini davam etdirmək əvəzinə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyi tələb edirik".

# Dövlət Komitəsinin nümayəndələri "N" hərbi hissəsində olub

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, hərbi qulluqçulara vətənpərvərlik hissinin aşılanması məqsədilə həyata keçirilən tədbirlər davam edir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin, eləcə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri "N" hərbi hissəsində olub, hərbi qulluqçularla görüşüblər.

Tədbirlər çərçivəsində hərbi xidmətə yeni çağırılan gənc əsgərlərlə onların xidmət şəraitinə uyğunlaşması və psixoloji sağlamlıqlarının qorunması məqsədilə söhbətlər aparılıb, lazımi tövsiyələr verilib.

Həmçinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu və bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti şəxsi heyətin diqqətinə çatdırılıb.



Sonda hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

# Rusiya səfiri Azərbaycanı tərk edir

***Xarici işlər naziri Ceyhun Bayramov Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu ölkəmizdəki diplomatik fəaliyyətinin bitməsi münasibətilə qəbul edib.***

Bu barədə "Unikal"a Xarici İşlər Nazirliyindən məlumat verilib. Görüş zamanı tərəflər Azərbaycan və Rusiya arasında səmərəli əməkdaşlığı və onların inkişaf perspektivlərini məmnunluqla vurğulayıblar. Müttəfiqlik qarşılıqlı fəaliyyət səviyyəsinə yüksələn münasibətlərin dinamik şəkildə inkişaf etdiyi diqqətə çatdırılıb.



C.Bayramov səfir Mixail Boçarnikova fəaliyyəti dövründə Azərbaycan-Rusiya münasibətlərinin inkişafına verdiyi töhfəyə, peşəkar fəaliyyətə və meydana gələn məsələlərin effektiv həllinə göstərdiyi dəstəyə görə dərin minnətdarlığını bildirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

M.Boçarnikov öz növbəsində Azərbaycandakı fəaliyyəti dövründə ona göstərilmiş dostluq və əməkdaşlıq münasibətlərinə görə öz minnətdarlığını bildirib.

Görüş zamanı, həmçinin, ikitərəfli münasibətlərlə bağlı qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcivani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# AQTA Qurban bayramına hazırlığa başladı

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Qurban bayramına hazırlıq prosesinə başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə AQTA-nın sədri Qoşqar Təhməzli jurnalistlərə açıqlamasında məlumat verilib.

Onun sözlərinə görə, AQTA müvafiq qurumlarla birgə ölkədə standartlara uyğun kəsim məntəqələrində monitorinqlər keçirib: "Standartlara uyğun olmayan yerlərdə isə çadır tipli kəsim məntəqələri quraşdırılacaq".

Q.Təhməzli həmçinin xatırladıb ki, artıq Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı və Tərtər rayonunun Talış kəndində çadır tipli heyvan kəsimi məntəqələri quraşdırılıb: "Həmin çadırlarda heyvanların kəsimi həyata keçiriləcək. Bildiyiniz kimi, artıq əhali bəzi əraziyə köçüb. Təbii ki, gündəlik tələbat mallarından biri də ət məhsullarıdır. Həmin çadır tipli kəsim məntəqələri quraşdırılıb. Şəhərsalmaya uyğun olaraq, orada stasionar tipli kəsim məntəqələr inşa ediləcək".

# Vaşinqton görüşünün təxirə salınması ilə bağlı açıqlama

***"Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında növbəti görüşün dəqiq tarixinin müəyyənləşdirilməsi istiqamətində iş aparılır və ümidvarıq ki, bu görüş yaxın zamanlarda baş tutacaq".***

"Unikal" xəbər verir ki, Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadə 12 iyunda Vaşinqtonda nəzərdə tutulan Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün təxirə salınması ilə bağlı deyib. "Bir qayda olaraq, görüşün dəqiq tarixinin əlaqələndirməni həyata keçirən təşkilatçı ölkə tərəfindən elan edilməsi təcrübəsi mövcuddur", - o əlavə edib. Qeyd edək ki, bundan əvvəl Ermənistan XİN Vaşiqntonda nəzərdə tutulan görüşün Azərbaycan XİN-in xahişi ilə təxirə salındığı haqda məlumat yaymışdı.

# Əli Əsədov MDB-nin iclasında çıxış edib

***İyunun 8-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Hökumət Başçıları Şurasının iclası keçirilib.***

Nazirlər Kabinetindən "Unikal"a verilən məlumata görə, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib. İclasdan əvvəl Ə.Əsədov və digər nümayəndə heyətlərinin başçıları "Sirius" Elm və İncəsənət Parkında "Avrasiya bizim evimizdir" adlı sərgi ilə tanış olublar.

Ə.Əsədov Şuranın məhdud tərkibli iclasında çıxış edərək, MDB-nin iştirakçı-dövlətlərinin hökumət başçılarına onların ölkələrində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş yüksək səviyyəli çoxsaylı tədbirlərin təşkilinə görə minnətdarlığını bildirib.

Qeyd olunub ki, Azərbaycan Respublikası MDB çərçivəsində hökumətlər səviyyəsində qarşılıqlı faydalı tərəfdaşlığa və səmərəli əlaqələrin davam etdirilməsinə böyük əhəmiyyət verir. Birliyə üzv dövlətlər arasında qarşılıqlı anlaşmanın və mehriban qonşuluğun möhkəmləndirilməsində humanitar sahənin başlıca rolu vurğulanıb.Bununla bağlı MDB Oyunlarına toxunan Ə.Əsədov bildirib ki, bu Oyunlar humanitar sahədə mühüm idman layihəsi kimi iştirakçı-ölkələrin xalqları arasında ənənəvi dostluq əlaqələrinin möhkəmlənməsinə kömək edir. Üçüncü MDB Oyunlarının 2025-ci ildə ölkəmizdə keçiriləcəyini xatırladan Baş nazir Azərbaycanın birinci Avropa Oyunları (2015), IV İslam Həmrəyliyi Oyunları (2017), Avropa Gənclər Yay Olimpiya Festivalı (2019), UEFA çərçivəsində klub və milli yarışların, Formula 1 Qran-priləri kimi nüfuzlu idman yarışlarının keçirilməsi təcrübəsindən danışıb.

"Biz müasir idman, logistika və turizm infrastrukturuna, kifayət qədər kadr potensialına sahibik. Bütün bu resurslar Azərbaycan dövlətinin bütün iştirakçılara və nümayəndələrə verdiyi tam təhlükəsizlik zəmanəti ilə birlikdə yarışların uğurla və yüksək səviyyədə keçəcəyini deməyə əsas verir", - deyə Ə.Əsədov əlavə edib.

Qeyd olunub ki, Azərbaycan MDB-nin iştirakçı-dövlətlərinin demək olar ki, hamısı ilə ikitərəfli əsasda sıx iqtisadi-ticari əlaqələr saxlayır və bu əlaqələr getdikcə genişlənir.

Baş nazir deyib ki, "2022-ci ilin yekunlarına görə, Azərbaycanın MDB-yə üzv ölkələrlə ticarət dövriyyəsinin ümumi həcmi 28 faizdən çox artıb: "Müsbət dinamika cari ildə də müşahidə olunur. İlk dörd ayda biz qarşılıqlı ticarəti 22 faiz artırmağa nail olmuşuq".

Mövcud qlobal geosiyasi çağırışlar fonunda nəqliyyat-tranzit sahəsində əməkdaşlığın aktuallığının artdığı qeyd olunub. "Azərbaycan regionda əsas nəqliyyat qovşağı kimi, nəqliyyat-logistika infrastrukturunu daim təkmilləşdirir və MDB üzrə tərəfdaşlarının ehtiyacları üçün yükdaşımaların artan həcmini təmin etməkdən ötrü öz potensialından daha intensiv istifadə etməyə hazırdır", - deyə Ə.Əsədov bildirib.

Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin açılmasının mühümlüyü qeyd edildi. MDB dövlətlərinin alternativ enerji mənbələrinin inkişafında əməkdaşlığa artan marağı nəzərə alınmaqla, Hökumət Başçıları Şurasının diqqəti Azərbaycanda bu sahədə görülmüş işlərə yönəldilib.

"Bu istiqamətdə aparılan işlər çərçivəsində dünyanın aparıcı şirkətləri ilə birgə artıq bir sıra iri layihələr icra olunur", - deyə Ə.Əsədov əlavə edib.

Eyni zamanda, Azərbaycanın "yaşıl" enerji gündəliyi məsələləri üzrə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını nəzərdən keçirməyə hazır olduğu bildirilib. İclas iştirakçıları regionda münaqişədən sonrakı vəziyyət barədə də məlumatlandırılıb. Qeyd olunub ki, sülh gündəliyinə sadiq qalan Azərbaycan regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə səyləri davam etdirmək əzmindədir. Vurğulanıb ki, Azərbaycan hökuməti işğaldan azad olunan ərazilərin bərpası və inkişafı istiqamətində genişmiqyaslı işlər həyata keçirir.

Nümayəndə heyətləri rəhbərlərinin çıxışlarından sonra MDB Hökumət Başçıları Şurası işini geniş tərkibdə davam etdirib. İclasın yekunlarına əsasən, Birlik çərçivəsində əməkdaşlığın gələcəkdə genişləndirilməsi ilə bağlı bir sıra sənədlər imzalanıb.






# Nazirlikdən 1-ci sinfə qəbulla bağlı iddialara cavab

***Artıq bir neçə gündür ki, sosial şəbəkələrdə və mətbuatda birinci sinfə gedəcək şagirdlərin şifahi nitq bacarıqları ilə bağlı müsahibədən keçirilməsi mövzusu müzakirə olunur. İddia olunur ki, gələcək birincilər şifahi nitq bacarıqları ilə bağlı imtahan verirlər.***

Elm və Təhsil Nazirliyi "Qafqazinfo"nun sorğusuna cavab olaraq bildirib ki, öz ana dilində tədris almaq istəyən uşaqların şifahi nitq bacarıqlarının yoxlanılması ilə bağlı heç bir müsahibə keçirilmir: "Bir çox media orqanlarında 1-ci sinfə qəbulla bağlı həqiqəti əks etdirməyən məlumatlar yayımlanıb. Belə yazıların birində hörmətli Şahlar Əsgərovun 1-ci siniflərə şagird qəbulu ilə bağlı fikirləri yer alıb. Yazıda qeyd edilənlərin əksinə olaraq öz ana dilində tədris almaq istəyən uşaqların şifahi nitq bacarıqlarının yoxlanılması ilə bağlı heç bir müsahibə keçirilmir. Onu da bildirək ki, növbəti tədris ili üzrə 130 mindən çox uşağın 1-ci sinfə qəbulu proqnozlaşdırılır. Artıq 110 mindən çox uşaq onlayn sistem üzərindən heç bir müsabiqə və müsahibəsiz 1-ci siniflərə yerləşdirilib. Bu sayın təxminən 90 mindən çoxu məktəbəhazırlıqdan birbaşa 1-ci sinfə qəbul olunub".

Nazirlikdən həmçinin bildirilib ki, bu proses sentyabrın 14-dək davam edəcək.

Təhsil eksperti Adil Vəliyevin sözlərinə görə, tədris digər dillərdə olarsa, həmin məktəblərdə şifahi nitq bacarıqları yoxlanıla bilər: "Tədris digər dillərdə aparılan bölmələrə uşaq qəbulu zamanı onların şifahi nitq bacarıqlarının yoxlanılması ümumtəhsil haqqında qanunvericiliyin tələbidir. Həm də uşağın gələcəkdə bu dildə təhsil almağa hazır olub-olmamasını ayırd etməkdir. Bəzən valideynlər dili bilməyən övladlarını məktəbə yazarkən uşağın bu dili öyrənəcəyinə ümid bəsləyir. Tədqiqatlar göstərir ki, bu, tədris dilini dilməyən uşaqlar üçün ilk illərdə öyrənmə prosesində ciddi maneə yaradır, belə uşaqlar bir çox hallarda dərin psixoloji stres keçirirlər. Həmin şagirdlər bir neçə il ərzində dili öyrənsələr də, fənlərin öyrənilməsində böyük çətinliklə qarşılaşırlar. Bu həm də digər bölmələrdə təhsil alan şagirdlərin ümumi nəticələrinin aşağı düşməsinə gətirib çıxarır. Bir daha qeyd edirik ki, məktəbi dil öyrənmək kursu ilə eyniləşdirmək düzgün yanaşma deyil".

# Sahibə Qafarova Numan Kurtulmuşu təbrik etdi



***Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşa təbrik məktubu ünvanlayıb. Məktubda spiker Sahibə Qafarova Numan Kurtulmuşu Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri vəzifəsinə seçilməsi münasibəti ilə öz adından və Milli Məclisin deputatları adından təbrik edərək, ona ən xoş arzularını çatdırıb.***

Bu barədə "Unikal"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Məktubda deyilir ki, "Bir millət iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasındakı strateji müttəfiqlik bütün sahələrdə olduğu kimi parlamentlərarası əlaqələr sahəsində də uğurla inkişaf edir.

Milli Məclisin sədri Numan Kurtulmuşu ölkəmizə rəsmi səfərə dəvət edib. Həmin gün Sahibə Qafarovanın Numan Kurtulmuşla telefon danışığı olub. Telefon danışığı zamanı Milli Məclisin spikeri, TBMM sədrini bir daha təbrik edərək, xalqlarımızın mənafeyi və rifahı naminə gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Türkiyə Böyük Millət Məclisinin sədri təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirərək, TBMM ilə Milli Məclis arasında əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini söyləyib.



## “Azərbaycan sərhəd təhlükəsizliyinə xüsusi önəm verir” - Məhərrəm Əliyev

***“Azərbaycan sərhəd təhlükəsizliyi məsələlərinə xüsusi önəm verir”.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyev deyib.

M.Əliyev xatırladıb ki, bu il ölkənin sərhəd təhlükəsizliyinin əsasını qoyan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi qeyd olunur. O, Ulu Öndərin Azərbaycanda zabit kadrlarının hazırlanmasında xidmətlərini də qeyd edib.

## Rəşad Nəbiyev Naxçıvanda rəhbər şəxslərlə görüşdü

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində MR-da Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Naxçıvanın aidiyyətli qurumlarının rəhbərləri ilə görüşüblər.***

”Unikal” xəbər verir ki, görüşdə Prezident İlham Əliyevin təsdiq etdiyi “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”ndan irəli gələn məsələlər geniş müzakirə edilib. Naxçıvanda telekommunikasiya, nəqliyyat, rəqəmsallaşma, mobil rabitə, poçt və digər sahələrdə sürətli inkişaf üzrə perspektiv planlara toxunulub konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilib, görüləcək işlərin planlanması, əlaqələndirilməsi və təhlili üzrə işçi qrupu yaradılıb.

Səfər çərçivəsində qonaqlar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad ediblər. Sonra qonaqlar muzeylə tanış olublar.

## Naxçıvanın Penitensiar Xidmətinin sabiq rəisi barədə yeni qərar

***Naxçıvanın Penitensiar Xidmətinin sabiq rəisi, ədliyyə general-mayoru Tofiq Həsənovun həbs müddətinin uzadılması ilə bağlı müstəntiqin vəsatəti əsasında verilmiş təqdimata baxılıb.***

“Qafqazinfo”nun əldə etdiyi xəbərə görə, Səbail Rayon Məhkəməsi prokurorluğun təqdimatını təmin edib. Məhkəmənin qərarı ilə Tofiq Həsənovun həbsdə saxlama müddəti 1 ay uzadılıb.

Qeyd edək ki, Tofiq Həsənov bu ilin yanvarında Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq Baş İdarəsində davam edən cinayət işi üzrə həbs edilib.

Sabiq xidmət rəisi vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə xüsusilə külli miqdarda mənimsəmədə və rüşvət almaqda təqsirləndirilir.

# “Erməni tərəfi sülhdən yayınmaq üçün müxtəlif təxribatlar törədə bilər”

### Ədalət Verdiyev: “Hesab edirəm ki, Ermənistan tərəfi öz davranışlarında ciddi korrektələr etməzsə, yaxın vaxtlarda geri dönüşü olmayan çox ciddi proseslərlə qarşı-qarşıya qala bilər”



***Hərbi ekspert Ədalət Verdiyev ”Unikal”a müsahibə verib. O, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin atəşə tutulmasının səbəblərindən, Ermənistan tərəfinin sülh danışıqlarını uzatmasından və Ordumuzun antiterror əməliyyatı keçirməsi ehtimalından danışıb.***

***- Ədalət müəllim, son günlər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun mövqeləri atəşə tutulur. Düşmən tərəfinin davamlı olaraq atəşkəsi pozmaqda məqsədi nədir?***

-İlk dəfə deyil ki, Ermənistan tərəfi sülh danışıqlarının intensivləşdiyi bir vaxtda atəşkəsin pozulmasına və müxtəlif təxribatlara əl atırlar. Bunun əsas məqsədi sülh sazişi ətrafındakı danışıqları sərhəddə və ya Qarabağda baş verən proseslərə yönəltməkdən ibarətdir. Ermənistan tərəfi sülh sazişi imzalamaqda və ya bu istiqamətdə razılaşmaların əldə olunmasında maraqlı olsaydı, qoşunlarına atəş açmağı, təxribatlar törətməyi qadağan edərdi. Belə hallarla daha əvvəllər də qarşılaşmışıq. Heç bir zaman istisna etmirdik ki, erməni tərəfi sülh danışıqlarından yayınmaq üçün müxtəlif təxribatlar törədə bilər. Bu ehtimallar daim özünü doğruldur. Ermənistan rəhbərliyi sülh sazişinin imzalanmasının nə qədər ağrılı-acılı olacağını anlayır. Onlar hər bir element üzrə ayrı-ayrılıqda saziş imzalamağa üstünlük verirlər. Azərbaycan tərəfi sərhədlə, delimitasiya ilə, Zəngəzurla, erməni silahlılarının Qarabağdan çıxarılmasına qədər olan bütün proseslərin vahid bir sənəddə əksini tapmasında israrlıdır. Ermənistan tərəfinin məqsədi isə prosesi mümkün olduğu qədər uzatmaqdır. Bu isə sonda onlar üçün nəticəsi yaxşı olmayan hadisələrə gətirib çıxara bilər.

***-Bu il sülh danışıqlarının intensivləşdiyini siz də qeyd etdiniz. Ermənistanın baş naziri Nikol Paşinyan da sülhə hazır olduqlarını bildirib. Bir tərəfdən belə fikirlər səsləndirirlər, digər tərəfdən isə atəşkəsin pozulması davam edir. Ermənistan rəhbərliyinin fikirlərinə əks gedən hansı qüvvələrdir?***

-Qarabağda mövcud olan qüvvələr tam şəkildə Paşinyana tabe olmur. Orada separatçı rejim var və onlar da fəaliyyətlərini daha çox Rusiya kontingenti ilə razılaşdırırlar. Bunlarla yanaşı Paşinyan sülhdən danışmaya bilməz. Bir dəfə Qarabağ Ermənistandır dedi və bu bəyanatın onlara nə qədər baha başa gəldiyini gördü. Siyasi rəhbərlərin dedikləri sözlər və ya başladıqları təxribatlar, müharibələr bir-biri ilə çox da fərqlənmir. Yəni, bəyanat da hərbi əməliyyatların bərpası üçün əsas verə bilər. Bu mənada Paşinyan başına gələn bəla və fəlakətlərdən təcrübə yığıb. Artıq sözlərinə diqqət edir, amma fəaliyyətlərində təxribatlardan əl çəkmir. Sonra bu təxribatlarda Ordumuzu günahlandırmağa başlayırlar. Bu təcrübəni də görmüşük.

***-Azərbaycan tərəfi təxribatlara son qoyulması üçün dəfələrlə qarşı tərəfə xəbərdarlıq edib. Ermənistan isə hələ ki, xəbərdarlıqlardan nəticə çıxarmır. Belədə təxribatların qarşısını almaq üçün Azərbaycan Ordusu Qarabağda anti-terror əməliyyatları keçirə bilərmi?***

-Mənə elə gəlir ki, təmizləmə, çəkindirmə və ya cəzalandırma əməliyyatı üçün çoxdan münbit şərait yetişib. Danışıqlar prosesi aktiv fazada olduğu üçün Azərbaycan bir qədər səbrli davranmağa meyillidir. Amma bu da uzun müddət davam etməyəcək. Hesab edirəm ki, Ermənistan tərəfi öz davranışlarında ciddi korrektələr etməzsə, yaxın vaxtlarda geri dönüşü olmayan çox ciddi proseslərlə qarşı-qarşıya qala bilər. Biz Qarabağda ”Qisas” əməliyyatına başlamışıq. Onun başa çatmasını elan etməmişik. Bunun davamı Qarabağda erməni silahlı dəstələrinin təmizlənməsinə, təxribatların minimumlaşdırılmasına, hərbi qulluqçularımızın azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri ilə məşğul olan mülki vətəndaşlarımızın həyat və sağlamlıqlarına yaranan təhdidlərin aradan qaldırılmasına xidmət edəcək.

***-Müdafiə Nazirliyinin son məlumatlarında qeyd olunur ki, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri mövqelərimizin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb. Onların fortifikasiya qurğularını quraşdırmaq cəhdləri nə ilə bağlıdır?***

-“Fortifikasiya” - silah və texnikaların effektiv istifadəsini, qoşunların davamlı idarəetməsini təmin edən, şəxsi heyətin və mülki əhalinin mühafizəsi üçün nəzərdə tutulan qurğulardır. Qoşunların əlində bəlli miqdarda silah, texnika və sistemlər mövcuddur. Həmin sistemlərin, texnikaların döyüşdə tətbiq effektivliyini artırmaq üçün onları müəyyən mühəndis qurğularında yerləşdirirlər. Məsələn, əsgəri səngərdə, sığınacaqda və blindajda yerləşdirirlər. Eləcə də bu texnikalara aiddir. Həmçinin, idarəetmə məntəqələrini yerin altında yerləşdirirlər. Bütün bunların toplam adı fortifikasiya qurğularıdır. Bu qurğular müdafiənin və ya döyüşün dayanıqlığını artırmağa, şəxsi heyətin, texnikanın qorunmasına və etibarlı şəkildə tətbiqinə şərait yaratmaq üçün inşa edilir. Bunlar hamısı ümumilikdə mühəndis qurğuları adlanır. Birmənalı olaraq fortifikasiya qurğuları Azərbaycana qarşı erməni silahlılarının müqavimət potensialını artırmaq məqsədi ilə qurulur. Erməni tərəfi bu möhkəmlənmədən sonra daha geniş miqyasda təxribatlar törətmək imkanı əldə edə bilər. Buna görə də Azərbaycan Ordusu düşmənin dizi üstə qalxmasına imkan verməli deyil. Ordumuz onların qurmağa cəhd etdiyi fortifikasiya qurğularını, səngərlərini, dayaqlarını, komanda-idarəetmə məntəqələrini, inşaata başlandığı anda həmin ərazini daim artilleriya atəşi altında saxlamalıdır.

***Anar Kəlbiyev***

***Yola salmaq üzrə olduğumuz həftə Milli Məclisin plenar iclasında deputat Fazil Mustafa uzun müddətdir mediada və vətəndaşlar arasında əsas müzakirə mövzularından biri olan dərmanların bahalılığı məsələsinə toxunub.***

”Dərmanların qiymətləri çox yüksəkdir. Bu qədər bahalaşıb, amma qarşısını almaq üçün tədbirlər görülmür. Bizim bazardan Avropa dərmanları çıxıb. Banqladeşin, rın qiymətləri ilə bağlı daha kəskin danışmışdı. Onun sözlərinə görə, məlumat var idi ki, hökumət dərman vasitələrinin qiymətləri ilə əlaqəli xüsusi layihə hazırlayır: “Amma uzun müddət keçməsinə baxmayaraq, həmin layihə barədə hələ də heç bir məlumat yoxdur. Bu gün dərmanların qiymətlərinin baha olması ciddi problemlərdən biridir. Bu məsələ yoluna qoyulmalıdır, belə olmaz”.

“Azərbaycanda elə dərmanlar raqları, o cümlədən möhtəkirlər var”.

Ümumiyyətlə, Azərbaycanda dərmanların nəinki Avropa ölkələri, hətta qonşu ölkələrlə, o cümlədən Türkiyə ilə müqayisədə xeyli baha olmasına dair başqa deputatların da iradlarını eşitmiş, oxumuşuq. Onların hamısını təkrarlamağa ehtiyac görmürük. Yuxarıdakı nümunələri də ona görə xatırlatdıq ki, az qala, hər həftə bir millət vəkilinin bu mövzuda tənqid səsləndirdiyini

# Kəmaləddin Qafarovun müəmmalı susqunluğu

## Azərbaycanda dərmanların Türkiyədəkindən ucuz olduğunu deyən biznesmen-deputat həmkarlarının tənqidləri qarşısında niyə susur?



Hindistanın dərmanlarını gətiririk. Türkiyə ilə bu sahədə əməkdaşlığı qura bilmədik. İnsanlar 100 manatlıq dərmanı 300 manata almağa məcbur olurlar” deyə o bildirib.

Xatırladaq ki, F.Mustafa sözügedən problemi parlament tribunasından dilə gətirən ilk deputat deyil. İlin əvvəlində yenə Milli Məclisdə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında komitə sədrinin müavini Əli Məsimli bildirmişdi ki, dərman qiymətlərinin artımı ailə büdcəsinə güclü zərbə vurur.

Əli Məsimli demişdi ki, Türkiyədən 3,20 manata olan dərmanı bir professor 39,40 manata alıb: ”Düşünürəm ki, bunun qarşısını Rəqabət Məcəlləsinin qəbul olunması alacaq. Cəzalandırılmayacağına tam əmin olan insan istədiyi kimi qiyməti artırır”.

Milli Məclisin apreldə keçirilən iclaslarının birində isə başqa bir deputat Vahid Əhmədov dərmanların var ki, Almaniya ilə müqayisədə 20 dəfə baha satılır. İki, üç dəfə qiymət baha olsa, haradasa başa düşmək olar, amma Almaniyada 5 avro olan dərman burada necə 150 avro ola bilər?”, - bunu isə bir müddət əvvəl deputat Siyavuş Novruzov bəyan etmişdi. O vurğulamışdı ki, ölkəyə dərman gətirən, onu satan, onu yoxlayan qurum ayrı olmalıdır: “Təsəvvür edin ki, bizdə dərman gətirən, onun ekspertizasını keçirən və aptekə verən eyni adam, şirkət olur. Məlumatlara görə, bəzən dərman zavoduna sifariş verirlər ki, dərmanın tərkibi aşağı olsun”.

Ölkədə dərmanların bahalılığına etiraz edən deputatlar arasında Fəzail Ağamalıya da rast gəlinir. O da bu yaxınlarda bildirmişdi ki, dərman vasitələrinin qiymətlərinə əlçatanlığın olmaması problemi mövcuddur: “Bu problemin yaşanması reallıqdır. Burada bazar iqtisadiyyatı, dərman gətirən və satanların ma söyləyək. Sonra da başqa bir deputata - Kəmaləddin Qafarova bir müddət öncəki açıqlaması ilə bağlı suallar ünvanlayaq.

Qafarov deputat həmkarlarından fərqli olaraq qəfildən belə açıqlama verməşdi ki, “Azərbaycanda bir çox dərmanların qiymətləri Türkiyədən ucuzdur”. Həmin absurd açıqlama mətbuatda və ictimaiyyətdə haqlı olaraq tənqid atəşinə tutuldu. İndi isə biz Kəmaləddin müəllimin deputat həmkarlarının mütəmadi olaraq dərmanların bahalılığına etirazlarını görürük. Maraqlıdır: Qafarov bu etirazlar qarşısında niyə susur, nə üçün Azərbaycanda dərmanların Türkiyədəkindən ucuz olması barədə ”parlaq” açıqlamasını təkrarlamır?

Qeyd edək ki, adıçəkilən deputatın müxtəlif sahələrdə biznesi var, lakin onun əsas gəlir mənbəyi məhz dərman satışındandır. “AzəriMed” MMC şirkəti onun ən böyük dərman firmasıdır. Şirkət həm də “Tibbi Market”də tibbi ləvazimatların və avadanlıqların satışını həyata keçirir. O cümlədən, ”Zəfəran” apteklər şəbəkəsi və “Zəfəran Hospital” da bu şirkətə daxildir. Qafarov həmçinin “Kanon” apteklər şəbəkəsinin qeyri-rəsmi sahibidir.

Bundan başqa, ölkə kənarında, məsələn, Gürcüstanda da deputatın əczaçılıq biznesinin olduğu barədə məlumatlar yayılıb. Həmin məlumatların heç biri indiyədək Qafarov tərəfindən təsdiqlənməsə də, təkzib də edilməyib.

Sahib olduğu bu nəhəng dərman biznesi fonunda Kəmaləddin müəllimin deputat həmkarlarının dərman qiymətlərindəki fantastik bahalaşma barədə tənqidləri qarşısında susqunluğu, əvvəlki absurd açıqlamasını bir daha dilə gətirməməsi maraq doğurur. Görünür, o, bu mövzuda həmin həmkarları ilə polemikaya girmək istəmir. Bəlkə də, deputatların birinin ona dərman biznesini, yəni dərman bazarında maraqlı tərəf olmasını xatırlatmasından çəkinir, kim bilir...

***Sənan Mirzə***



*Zaur Əhməd*

# İlahi seçim: fanilikdən baqiliyə gedən yol...

## Mal sahibi, mülk sahibi, hanı onun ilk sahibi?...

***“Naxçıvan Bank” ASC-nin yeni səhmdarları açıqlanıb. Bankın səhmlərinin 63,66%-i Hüseyn Məmmədova, 26,52%-i Rüfət Məmmədova (Müşahidə Şurasının üzvü), 9,82%-i isə Binnət Novruzova (Müşahidə Şurasının sədri) məxsusdur.***

Xatırladım ki, bundan əvvəl səhmlər Naxçıvan MR-in Ali Məclisinin keçmiş sədri Vasif Talıbovun ailə üzvlərinə məxsus olub. Belə ki, onun oğlu Rza Talıbov kredit təşkilatında 63,66%, digər oğlu Seymur Talıbov 20,48%, qızı Baharxanım Talıbova 9,82%, xanımı Sevil Sultanova isə 6,04% paya malik olub.

Sirr deyil ki, bu dünyada kimsə mal-mülkün həqiqi və daimi sahibi ola bilməyib. Axı heç insan özü daimi və həqiqi varlıq deyil. İnsan bu dünyada iki şeyin əsl sahibidir və ölümdən sonrakı mərhələyə o iki şeyi aparır. Biri etdiyi yaxşılıqlar, digəri etdiyi pisliklər.

Talıbovlar bu günə kimi yiyələndikləri sərvəti hələ bu dünyada itirə-itirə gedirlər. Bəlkə də yeddi nəsil bundan sonralara çatacaq qədər varidatları var. Amma özləri nə aparacaq? Deyilənlərə, yazılanlara görə, ən çox sahib olduqları və aparacaqları pislik və günahlarıdır...

Bu gün Talıbovlarla bağlı fakt çıxdı deyə onların adlarını yazıram. Azərbaycanda dövlətin qüdrətini özününkü bilib, xalqın sərvətini talayan, özlərinə səltənət quran onlarla, yüzlərlə adam var ki, beləcə haqqa girib, haram yolla var-dövlət sahibi olublar. Onların bir çoxu barədə məlumatlıyıq, bəzilərinin elə bu dünyada cəzalarını aldığını görmüşük, bəzilərinin isə nələr çəkdiyini heç bilməmişik...

Min illərdir ki, insan var və bu qədər cəzalar, ilahi hikmətə söykənən görklər olur, amma insan oğlu yenə də günahdan əl çəkmir. Maraqlı bir deyim var: İnsan bir yaxşılıq edəndə elə bilir ki, Allah onu görür və bunun qiymətini verəcək. Lakin günah edəndə düşünür ki, yəqin, Allah görməz. Beləcə insan əsrlər boyu günah edir və acı sonu dadır...

Dünyaya hökm etmiş Sultan Süleyman ölümünə az qalmış vəsiyyət edir ki,cənazəsi əlləri tabutdan çölə çıxarılmış vəziyyətdə aparılsın və hamı onun əllərini görə bilsin: ”Qoy hər kəs mənim əllərimi görsün. Görsünlər ki, hətta bütün cahanın padşahı - Sultan Süleyman Qanuni belə bu dünyadan əliboş gedir”.

...Bir həqiqət var, insan fani varlıqdır. Özünü dərk edəndən sonra bilir ki, nə zamansa öləcək, amma bu həqiqəti özünə yaxın buraxmaq istəmir. Bu mütləq həqiqəti kim daha çox qəbul edirsə, o, insanlıqdan uzaq düşməyərək yaşayır. Bəlkə də bu seçiminə görə, ölümdən sonrakı mərhələdə bunun səfasını sürə bilir. Çox yəqin ki, əksini edənlərin, günahkarların cəzası yüngül olmayacaq.

Odur ki, ey insan oğlu, seçim səninidir. Gözünün önündə nümunələr də var, ehtimallar da. Seçim etmək sənin əlindədir. Bu, ilahi seçimdir və fanilikdən baqiliyə gedən yolunu özün müəyyənləşdirirsən...

Mal da yalan, mülk də yalan,
Al, bir az da sən oyalan...

***P.S. Bu, bir nəsihət deyil, elə özüm üçün də bir xatırlatmadır.***

# Azərbaycan nümayəndə heyəti BMT-nin sessiyasında



***Almaniya Federativ Respublikasının Bonn şəhərində 5-15 iyun tarixlərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının köməkçi orqanının 58-ci sessiyasında Azərbaycan nümayəndə heyəti iştirak edir.***

Bu barədə "Unikal"a Ekologiya və Təbii Sərvətlər Nazirliyindən məlumat verilib.

Tədbirdə iştirak edən ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva bildirib ki, dünya ölkələrinin rəsmi nümayəndələrinin iştirak etdiyi beynəlxalq konfrans iqlim dəyişmələri üzrə yeni effektiv əməkdaşlıq sahələrini, danışıqlar prosesini müəyyən edən mötəbər formatdır: "Builki beynəlxalq konfransın əvvəlkilərdən fərqi həm də ondan ibarətdir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəflər konfransının 30 noyabr-12 dekabr 2023-cü il tarixlərində Dubayda keçirilməsi nəzərdə tutulan 28-ci sessiyası (COP 28) zamanı ilk Qlobal Dəyərləndirmə (Global Stocktake) Hesabatının hazırlığı prosesi ilə ölkələr tanış ediləcək və öz mövqelərini bildirəcəklər".

Tədbirdə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti bir sıra ikitərəfli görüşlər keçirib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ilə görüşdə Azərbaycanda ərtaf mühitin qorunmasında həyata keçirilən tədbirlər və qəbul olunan Dövlət Proqramları, Strateji Yol Xəritələri haqqında məlumat verilib. Ölkədə iqlim dəyişmələrinin təsirlərinin azalmasına, qlobal səylərə töhfə verilməsinə yönələn "yaşıl gündəlik" və "yaşıl siyasət"dən söhbət açılıb.

# MDB Sərhəd Qoşunlarının komandanları Bakıda toplaşdı



***Bakıda MDB Sərhəd Qoşunlarının Komandanları Şurasının 86-ci iclası keçirilir.***

"Unikal" xəbər verir ki, Bakıda bu gün Müstəqil Dövlətlər Birliyinin Sərhəd Qoşunlarının Komandanları Şurasının (MDB SQKS) 86-ci iclası keçirilir.

Tədbirdə Azərbaycan Respublikası ilə yanaşı, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Türkmənistan və Ermənistanın sərhəd xidmətləri, SQKŞ-nin Əlaqələndirici Xidməti, MDB-nin İcraiyyə Komitəsi, MDB-nin Antiterror Mərkəzi, MDB üzv ölkələrinin ərazisində mütəşəkkil cinayətkarlığa və cinayətin digər təhlükəli növlərinə qarşı mübarizənin əlaqələndirilməsi Bürosu, Sərhəd Xidməti veteranlarının Beynəlxalq ictimai Birliklər İttifaqının Əlaqələndirici Şurasının nümayəndə heyətləri və fəxri qonaqlar iştirak edir.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti 1992-ci ildən fəaliyyət göstərən və Müstəqil Dövlətlər Birliyinin üzv ölkələri arasında sərhəd təhlükəsizliyinin təmin olunması sahəsində əməkdaşlıq məsələlərinin əlaqələndirilməsini həyata keçirən SQKŞ-nin iclaslarında müşahidəçi qismində iştirak edir.

Sərhəd Qoşunları Komandanlar Şurasının 2001-ci ildə 40-cı, 2008-ci ildə 60-cı, 2013-cü ildə 70-ci və 2017-ci ildə 78-ci iclasları Bakı şəhərində keçirilib.

Tədbirdən öncə Ümumilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoyulub, Ulu Öndərin ruhuna hörmət və ehtiram bildirilib. İclasda MDB iştirakçısı olan dövlətlərin xarici sərhədlərində vəziyyət və onun inkişaf tendensiyalan, MDB üzv dövlətlərinin xarici sərhədlərindən qanunsuz fəaliyyətlərin qarşısının alınması məqsədilə 2023-cü ildə keçirilən və 2024-cü il üçün planlaşdırılan birgə əməliyyatlar, SQKŞ-nin 87-ci iclasının təşkili və gündəliyinin layihəsi nəzərdən keçiriləcək, eləcə də tədbirin gündəliyinə uyğun olaraq digər məsələlər ətrafında fikir mübadiləsi aparılacaq.

Bununla yanaşı, aidiyyəti nümayəndə heyətləri arasında ikitərəfli formatda görüşlər keçirilmiş. qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunacaq.

Tədbir çərçivəsində iştirakçılar Dövlət Sərhəd Xidmətinin struktur bölmələrinin fəaliyyəti ilə tanış ediləcəklər.

# Mustafa Abbasbəyliyə milyonluq tenderlərlə bağlı asan suallar

## Dövlət Məşğulluq Agentliyinin şübhəli satınalmaları... - 10 manatlıq nizamnamə kapitalı olan şirkətin böyük məbləğlərlə ifadə edilən satınalma müsabiqələrinin qalibinə çevrilməsi mübahisə doğurub



***Bu günlərdə Dövlət Məşğulluq Agentliyi Publik Hüquqi Şəxsi Quba Peşə Hazırlığı Mərkəzində İT infrastrukturun (sistemlərin) qurulmasına lazım olan avadanlıqlar, proqram təminatları və onların quraşdırılması (sazlanması) işlərinin satın alınması ilə bağlı təxminən 1 milyon manatlıq tenderə yekun vurub. Tenderin qalibi "B2B" Group MMC olub. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 959.691,6 AZN olub.***

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, adıçəkilən MMC 19.04.2019-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 10 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri, Binəqədi rayonu, M.Rəsulzadə ŞTQ, Qəzənfər Musabayev (Rəsulzadə qəsəbəsi), ev 9-da yerləşir. Qanuni təmsilçi isə Sumqayıt şəhər sakini Ramal Bəşir oğlu Bəşirov göstərilib.

Dövlət satınalmalarının elektron portalında yerləşdirilən məlumatlardan aydın olur ki, "B2B" Group MMC təkcə 2023-cü ildə dövlət qurumları tərəfindən keçirilən 15 böyük məbləğli tenderin qalibi olub. 2023-cü ilin yalnız may ayında şirkət ümumi maliyyə dəyəri 56.811.186 manat olan 7 tenderin qalibi olub. Son iki ildə isə şirkət ümumilikdə 48 tender qazanıb.

Adıçəkilən MMC-nin xüsusilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, eləcə də bu nazirliyin tərkibindəki Dövlət Məşğulluq Agentliyinin tenderlərində davamlı qalib olması müzakirə mövzusuna çevrilib. Məsələn, ötən ilin payızında bu qurum şəbəkə təhlükəsizliyi, digər texniki avadanlıqların və malların alınması və quraşdırılması işlərinin satın alınması ilə bağlı elan etdiyi tenderə yekun vurub və qalib yenə "B2B Group" MMC olub. Şirkətlə 549,934 min manat məbləğində satınalma müqaviləsi imzalanıb. Həmin vaxt da nizamnamə kapitalı cəmi 10 manat olan şirkətin yarım milyonluq tenderi udması mübahisələrə yol açmışdı. Üstəlik, şirkətin qanuni təmsilçisi Bəşir Bəşirovun əvvəllər mərhum vergilər naziri Fazil Məmmədova məxsus olduğu iddia edilən "Caspel" şirkətində çalışdığı bildirilmişdi. Lakin MMC istər onunla, istərsə də başqa sabiq yüksək vəzifəli şəxslərlə, yaxud hazırkı hansısa iri məmurla yaxınlığını təkzib eləmişdi. Lakin bu, mübahisələri sonlandırmamışdı. Cari ilin martında 10 manatlıq nizamnamə kapitalı olan şirkət Dövlət Məşğulluq Agentliyinin də tabe olduğu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə "Elektron poçt sisteminin qurulması üçün lisenziyanın və Nazirliyin Aparatında strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyində olan qurumlarda istifadəçi İT avadanlıqlarında proaktiv informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə XDR lisenziyasının satın alınması" tenderi üzrə yenə böyük məbləğdə müqavilə bağlamışdı. Həmin vaxt söhbət təxminən 1 milyon 200 min manatdan, daha dəqiq desək, 1 186 977 manatdan gedirdi.

Həm media, həm də iqtisadçı ekspertlər belə az nizamnamə kapitalı olan şirkətlərin milyonlarla manatlıq tenderlərin qalibi olmasına şübhə ilə yanaşırlar. Üstəlik, həmin şirkət təkcə bir dövlət qurumu ilə hər il iri məbləğlərlə ifadə olunan satınalma müqavilələri bağlayırsa, həmin şübhələr haqlı olaraq daha da böyüyür. Bir halda ki, söhbət Dövlət Məşğulluq Agentliyinin tenderlərində "B2B Group " MMC-nin ardıcıl qalib olmasından gedir, elə isə başqa bir nümunəni xatırladaq: 2021-ci ildə Agentliyin "Bərdə Peşə hazırlığı Mərkəzində İT infrastrukturun (sistemlərin) qurulmasına lazım olan avadanlıq, proqram təminatları və onların quraşdırılmasının (sazlanmasının) satın alınması" lotu üzrə yekun vurduğu satınalmanın məbləği 838.133 manat, qalibi isə məhz adıçəkilən şirkət olub.

Yəni, doğrudanmı, Azərbaycanda 5, yaxud 10 manatlıq nizamnamə kapitalı olan şirkətlər tamamilə obyektiv, şəffaf keçirilən tenderlərdə hər il milyonlarla manatlıq dövlət satınalmasının qalibi ola bilirlər? Reallıqda bu mümkündürsə, bəs onda niyə yalnız iqtisadçı ekspertlər yox, hətta millət vəkilləri də öz çıxışlarında buna şübhə ilə yanaşır, ortada hansısa müəmmalı səbəblərin mövcudluğunu vaxtaşırı vurğulayırlar?!

Ya da, həqiqətənmi, 5, yaxud 10 manatlıq nizamnamə kapitalı olan MMC-lər bu gülməli rəqəmlə dövlət satınalmaları zamanı tələb olunan şərtləri yerinə yetirmək iqtidarındadırlar? Həmin nizamnaə kapitalı ilə böyük məbləğli tenderlər üçün vacib tələbləri, məsələn, peşəkar kadr potensialını necə yaratmaq və ya saxlamaq mümkündür?

Sualların sırasını yetərincə uzatmaq olar. Lakin önəmli olan suallar deyil, önəmli olan əlaqədar qurumlardan bu suallara məntiqli cavablar verilməsidir...

***Toğrul Əliyev***

# Yeni nazir Adil Kərimlini məyus edən köhnə kadr...

## Regional Mədəniyyət İdarəsinin rəisi postuna potensial namizəd ətrafında nələr baş verir?




***Şəki Regional Mədəniyyət İdarəsində bir-birinin ardınca ciddi qalmaqallar yaşanır. Öncə Şəki sakini, eləcə də adıçəkilən İdarənin tabeliyindəki klublardakı rəqs dərnəyinin rəhbəri Nurəli Ramazanov rəis əvəzi Aqaəli Cəlilovun xüsusi tapşırığı ilə işə buraxılmadığını iddia edib. O qeyd edib ki, əmək müqaviləsi 2024-cü ilin yanvar ayına qədər qüvvədə olsa da, qeyd edilən maaş ona verilmir: "1-ci və 2-ci Qarabağ müharibələrinin hər ikisinin iştirakçısı olmuşam.***

Müharibə əliliyəm. Ötən il YAŞAT Fondunun dəstəyi ilə Vətən müharibəsi iştirakçılarının məşğulluğunun təmin olunması haqqında göstərişlərə əsasən, rəqs dərnəyi yaratmağıma razılıq almışam. 2022-ci ilin noyabr ayından etibarən Mədəniyyət İdarəsinin tabeliyindəki klublarda dərnək rəhbəri kimi fəaliyyətə başlamışam. İdarə ilə razılığımıza əsasən, rəqs dərnəyindən qazanılan pulun yarısı mənə çatmalı idi. Amma məni işə 2022-ci ilin noyabrın 1-dən deyil, 2023-cü il fevralın 1-dən götürüblərmiş. Mən isə heç bir əmək müqaviləsinə, sənədə qol çəkməmişəm. Onlara bildirmişəm ki, işə qəbul tarixim səhvdir, qeyd olunan vaxtdan 3 ay əvvəl işə başlamışam. Buna baxmayaraq, fevraldan rəsmi ştata götürüblər, aylıq 345 manat maaş yazıblar, mənim bunların heç birindən xəbərim yoxdur. İmzam olmadan necə işə götürə biliblər, çox qəribədir. Bütün bunlar bir tərəfə, tutaq ki, məni fevral ayından ştata alıblar, maaş yazıblar. Bəs o maaş hanı? Mənə nə pul verirlər, nə də dərnəyə buraxırlar. Fevral ayında şikayət yazmışdım. Mədəniyyət naziri ilə görüşmüşdüm, onun tapşırığı ilə məsələ həll edilməli idi. Amma ortada heç nə yoxdur. Dövlət Əmək Müfəttişliyi Xidmətinə də məktub yazdım. Onlar məsələni araşdırıb, haqlı olduğumu üzə çıxardılar. Müfəttişlik İdarəni cərimə etdi. Buna baxmayaraq, mənimlə əlaqədar heç bir addım atılmadı, pulumu yenə vermədilər" (oxu.az).

Şikayətçinin iddiasına görə, Regional Mədəniyyət İdarəsinin rəisi səlahiyyətini müvəqqəti icra edən Aqaəli Cəlilov tapşırıq verib ki, Nurəli Ramazanovu heç bir klubda görməyim: "Zəhmətimlə pulumu qazanıb, evimə çörəkpulu aparmağa çalışıram. Amma mənə böhtan atırlar ki, guya psixoloji pozğunluğum var. Halbuki əlimdə bu iddiaları da təkzib edən sənədlər mövcuddur. Sadəcə haqqımı tələb edirəm..."

Bu şikayət ictimailəşdirildikdən sonra Mədəniyyət Nazirliyindən bildirilmişdi ki, Nurəli Ramazanovun şikayəti nazirliyin Daxili nəzarət şöbəsi tərəfindən araşdırılır, nəticələr barədə əlavə məlumat veriləcək.

Lakin həmin əlavə məlumat verilmədən bu dəfə Aqaəli Cəlilovdan M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin bədii rəhbəri Rəşad Rüstəmov şikayətçi olub. O, İdarə rəisinin onu intihar həddinə çatdırdığını vurğulayıb: "Mən üçüncü dərəcəli əliləm. Çalışdığım 27 il ərzində bütün iş yoldaşlarımla normal münasibətdə olmuşam və heç bir insanla hər hansı bir problemim olmayıb. Son illər isə nədənsə direktor Aqaəli Cəlilovun davamlı qərəzi ilə qarşılaşıram. Mərkəzin ikinci rəhbər işçisi olmağıma baxmayaraq, dəfələrlə aylıq və illik tədbirlərin planlaşdırılmasında, aylıq iş planlarının tərtib olunmasında mənimlə məsləhətləşmədən, məni bu proseslərdən uzaqlaşdırmağa çalışıblar... Aqaəli Cəlilovun mənə qarşı qərəzi davam edir. Belə ki, sonuncu dəfə 26 aprel 2023-cü il tarixdə keçirilən tədbirdən sonra idarə rəhbərinin mənə qarşı qərəzi pik həddə çatdı. Səbəb Aqaəli Cəlilovun gəlişini gözləmədən, tədbiri tam vaxtında başlamağım olub. Halbuki idarə rəhbərinin də tədbirə gələcəyi haqqında mənə heç bir məlumat verilməmişdi... Bundan 2 gün sonra aprelin 29-da keçirilən mədəniyyət işçilərinin seminar müşavirəsində Aqaəli Cəlilov məni aşağılayaraq, tədbirdə onu gözləmədiyim üçün "ailə tərbiyəsi görməyən" adlandırıb, o gələndə ayağa durmadığımı bəhanə gətirib, məni təhqir edib. Rəis mənim dəli olduğumu deyərək, işdən çıxma ərizəsi yazmağa təhrik edib. Mən isə bilərəkdən ərizədə təhqir edildiyimi, bu səbəbdən işimdən istefa verdiyimi vurğulamışam. Üstəlik, psixoloji cəhətdən tam sağlam olduğum haqqında rəsmi sənəd də almışam. Aqaəli Cəlilov isə yazdığım həmin ərizəni qəbul etməyib, kağızı əzişdirib, yerə atıb. Sonrakı günlər işə getdikdə, mənə dedilər ki, artıq işə gəlmə, çünki çıxarılmışam..."

Bu şikayətçi də Dövlət Əmək Müfəttişliyi Xidmətinə (DƏMX) müraciət etdiyini deyib: "Məsələ araşdırıldı və haqlı olduğum ortaya çıxdı. Mədəniyyət Mərkəzinin rəhbərliyi məni yenidən işə geri qaytardı. May ayı ərzində işləsəm də ayın əvvəli, DƏMX tapşırıq verənə qədərki bir neçə günlük maaşım tutuldu. İyun ayından etibarən yenidən əmək müqaviləmə xitam verilib. Heç bir əsas gətirilmədən, işdən çıxarılmışam. Məsələ ilə bağlı yenidən DƏMX-ə və Mədəniyyət Nazirliyinə ayrı-ayrılıqda müraciət etdim. Hələ ki, məsələ araşdırılır, amma məni işə buraxmırlar..."

Məsələ ilə əlaqədar Mədəniyyət Nazirliyindən bu dəfə də araşdırma aparıldığını deməklə kifayətləniblər.

"Unikal"ın araşdırmasına görə, haqqında şikayətlərin ardı-arası kəsilməyən A.Cavadov 14 mart 2023-cü il tarixdən Mədəniyyət Nazirliyi Şəki Regional Mədəniyyət İdarəsinin rəisi səlahiyyətini müvəqqəti icra edir. Bundan başqa, o, Axundzadə adına Şəki Mədəniyyət Mərkəzinin direktorudur.

Rəis əvəzi 2009-2011-ci illərdə Şəki Dövlət Dram Teatrının rejissoru, 2011-2014-cü illərdə isə M.F.Axundzadə adına şəhər Mədəniyyət Mərkəzinin xalq teatrının rejissoru vəzifəsində çalışıb.

Cavadov Şəki Regional Mədəniyyət İdarəsinin rəisi postuna əsas namizəd sayılırdı. Lakin onun rəis səlahiyyətlərinin müvəqqəti icrasına başladıqdan sonra yerli mədəniyyət işçiləri ilə davamlı qalmaqallar yaşaması vəziyyəti dəyişdirib. Mədəniyyət Nazirliyinin ona bu işi həvalə edən yeni rəhbərliyinin Cavadovla bağlı şikayətlərdən məyus olduğu və təzə namizəd axtarışına çıxdığı da gələn məlumatlar arasındadır.

***Sənan Mirzə***



# Deputatlar ABŞ-a gedirlər

***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov, deputatlar Asim Mollazadə, Nigar Arpadarai və Anatoliy Rafailov Birləşmiş Ştatların paytaxtı Vaşinqton şəhərinə səfər edəcəklər.***

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən xəbər verilib.

Səfərdə millət vəkillərimiz ABŞ Konqresinin senatorları və deputatları ilə bir sıra görüşlər keçirəcəklər. Görüşlərdə parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi və tərəfləri maraqlandıran digər məsələlərlə bağlı müzakirələr aparılacaq.

Səfər iyunun 17-də başa çatacaq.

# "Sərhəd təhlükəsizliyi ilə bağlı təhdidlərin coğrafiyası genişlənir" - Elçin Quliyev

***"Son illər sərhəd təhlükəsizliyi ilə bağlı təhdidlərin müəyyən transformasiyasını, transsərhəd cinayətinin yeni növ və formalarının meydana çıxmasını, coğrafiyasının genişlənməsini müşahidə edirik".***



Bunu Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Bakıda keçirilən Müstəqil Dövlətlər Birliyinin (MDB) Sərhəd Qoşunlarının Komandanları Şurasının (SQKŞ) 86-cı iclasında bildirib.

Xidmət rəisi vurğulayıb ki, bu, öz növbəsində, sərhəd təhlükəsizliyinin təmin edilməsi üçün yeni yanaşma və həll yollarının axtarışı və tətbiqinin aktuallığını şərtləndirir.

"Bu baxımdan, gedən proseslərin vaxtında və düzgün qiymətləndirilməsi, sərhəd təhlükəsizliyinin təmin edilməsinə kompleks və səmərəli yanaşma beynəlxalq terrorizm, separatizm, transsərhəd cinayətlər, o cümlədən qeyri-qanuni miqrasiya, narkotik vasitələrin və digər qadağan olunmuş materialların qaçaqmalçılığı ilə mübarizədə təsirli vasitədir", - E.Quliyev qeyd edib.

General-polkovnik vurğulayıb ki, sərhəd təhlükəsizliyinin təmin edilməsi məsələləri Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi diqqətindədir.

"Son 20 il ərzində dövlət başçısı Dövlət Sərhəd Xidmətinin müxtəlif hərbi hissələrinə 40 dəfədən çox səfər edib, bölmələrdəki vəziyyətlə şəxsən tanış olub. Cənab Prezidentin bilavasitə dəstəyi ilə sərhəd təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi üzrə kompleks tədbirlər görülüb və bu istiqamətdə işlər davam etdirilir", - E.Quliyev əlavə edib.

# Həftəsonu "Kənddən Şəhərə" yarmarkası təşkil olunacaq



***10-11 iyun tarixlərində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən paytaxtda "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq.***

"Unikal" xəbər verir ki, həftəsonu yarmarkasının keçirilməsində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir. Yarmarkada müxtəlif regionlardan gələn fermerlər öz məhsullarını paytaxt sakinlərinə təqdim edəcəklər.

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında keçiriləcək yarmarkada satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar laboratoriyanın xidmətlərindən faydalana biləcəklər.

Qeyd edək ki, yarmarkada iştirak edəcək fermerlər piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla ödənişsiz şəkildə təmin olunacaqlar. Həmçinin məhsulların daşınmasında çətinlik çəkən fermerlərə loqistik dəstək göstərilərək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçirilən ünvanlara qədər daşınacaq.

Xatırladaq ki, Azərbaycanda Qurban bayramı iyunun 28-29-da qeyd olunacaq.

# Ucarda demoqrafik vəziyyətin statistikası



***2023-cü ilin əvvəlinə rayon əhalisinin sayı 0,7 faiz artaraq 84,5 min nəfərə çatmışdır. Hazırda rayon əhalisinin sıxlığı bir kvadrat kilometrə 102 nəfər təşkil edir.***

Ümumi rayon əhalisinin 20,3 faizi şəhər, 79,7 faizi kənd yerlərində yaşayır. Əhalinin 49,3 faizini kişilər, 50,7 faizini isə qadınlar təşkil edir və hər 1000 kişiyə 1026,4 qadın düşür. Əhalinin 22,0 faizini 0-14 yaşda, 70,6 faizini 15-64 yaşda, 7,4 faizini isə 65 və yuxarı yaşlarda olanlar təşkil edir. 14-29 yaşda olan gənclər rayon əhalisinin 23,7 faizini təşkil edir.

Əhalinin orta yaş həddi 34,2 o cümlədən kişilər üçün 33,0 yaş, qadınlar üçün isə 35,3 yaş təşkil edir. 2022-ci ildə rayonda 1126 nəfər, bir gündə təxminən 3,1 körpə doğulmuşdur ki, onların da 50,5 faizini oğlanlar, 49,5 faizini qızlar təşkil edir. Doğulanların 191 nəfəri və ya 17,0 faizi şəhərdə, 935 nəfəri və ya 83,0 faizi kənd yerlərində doğulmuşdur. 2021-ci illə müqayisədə əhalinin hər min nəfərinə hesabı ilə doğulanların sayı 11,9-dan 13,4-ə qədər artmışdır. Doğulanların 146 nəfəri rəsmi nikahdan kənar doğulmuş, onların da 19 nəfəri və ya 13,0 faizi şəhərdə, 127 nəfəri və ya 87,0 faizi kənd yerlərində doğulmuşdur.

2022-ci ildə 517 ölüm, 541 nikah və 99 boşanma halları qeydə alınmışdır.

Qeydə alınmış 541 nikahdan 107-si və ya 19,8 faizi şəhər yerində, 434-ü və ya 80,2 faizi kənd yerlərində qeydə alınmışdır. 2021-ci illə müqayisədə əhalinin hər min nəfərinə nikahların sayı 5,9-dan 6,4-ə qədər artmışdır.

2022-ci ildə 99 boşanma halı qeydə alınmışdır. 2021-ci illə müqayisədə əhalinin hər min nəfərinə boşanmaların sayı 1,5-dən 1,2-ə qədər azalmışdır.

2022-ci ildə ölənlərin sayı 517 nəfər olmuşdur ki, onların da 261 nəfərini və ya 50,5 faizni kişilər, 256 nəfərini və ya 49,5 faizini isə qadınlar təşkil edir. 2021-ci illə müqayisədə əhalinin hər min nəfərinə hesabı ilə ölənlərin sayı 7,1-dən 6,1-ə qədər azalmışdır. Ölüm hallarının ümumi sayından 121 nəfəri və ya 23,4 faizi şəhər yerində, 396 nəfəri və ya 76,6 faizi kənd yerlərində qeydə alınmışdır. O cumlədən 1 yaşa qədər ölən uşaqların sayı 8 nəfər olmuşdur. 2022-ci ildə Daxili İşlər Nazirliyinin Ucar Qeydiyyat şöbəsi tərəfindən daimi yaşamaq üçün rayona gələnlərin sayı 39 nəfər, rayondan gedənlərin sayı isə 7 nəfər qeydə alınmış, rayon üzrə miqrasiya saldosu müsbət 32 nəfər təşkil etmişdir.

***Ucar Rayon Statistika İdarəsinin rəis müavini Şakir Qasımov***

# Məmurların gözü qarşısında böyük saxtakarlıq

## Həftənin replikası: vətəndaş asqırsa başının üstünü kəsdirən vəzifəlilər bu boyda hoqqaları necə görmürlər?

***Son günlər sosial platformalarda bazardakı suların əhaliyə verilən su xətlərindən doldurularaq sexlərdə qablaşdırıldığına dair məlumatlar yayılır. Paytaxt sakinlərinin iddiasına görə, yaşayış binalarının zirzəmilərində yerləşən su sexləri istehsal etdikləri suların üzərinə bulaq suyu, təbii mineral su olduğunu yazsa da, həmin suları mərkəzləşmiş su xətlərindən götürərək qablaşdırırlar. İddialara görə, su sexləri keyfiyyətsiz suyu filtrdən keçirərək minerallaşdırırlar.***



Bu günlərdə "Araz su" şirkətinin təmsilçisi də su sexlərində istehsal olunan qablaşdırılmış içməli suların krandan axan su olduğunu, filtrdən keçirərək satışa çıxardıldığını təsdiqləyib.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) isə yayılan iddialarla bağlı araşdırma aparıb. AQTA satışa çıxarılan qablaşdırılmış sularla bağlı ciddi xəbərdarlıq edib. Qurumdan verilən məlumatda bildirilir ki, həyata keçirilən yoxlama nəzarət tədbirləri zamanı son vaxtlar bir sıra hallarda mərkəzləşdirilmiş su xəttindən verilən suyun müxtəlif filtrlərdən keçirilməklə qablaşdırılması və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini kobud şəkildə pozaraq üzərində müxtəlif təbiət mənzərələri, bulaq, çeşmə, dağ təsvirləri göstərməklə "təbii", "mineral", "müalicəvi" sözləri yazılmaqla satışa çıxarılması faktları aşkarlanıb. Bu xüsusda ötən həftə Bakı şəhəri, Yasamal rayonu, Z.Xəlilov küçəsi, ev 3 ünvanında fəaliyyət göstərən "Araz su" içməli su emalı müəssisəsində Agentlik əməkdaşları tərəfindən plandankənar yoxlama həyata keçirilmiş və qanunsuz fəaliyyətin qarşısı alınıb. Həmçinin aparılan nəzarət tədbirləri çərçivəsində "ÇEMP Su" və "Çuxuryurd İstisu" əmtəə nişanlı qablaşdırılmış sularda müvafiq qanunun tələbləri pozularaq "təbii", "mineral", "müalicəvi" və s. sözləri yazılmaqla satışa çıxarıldığı müəyyən olunub.

Hazırda bununla bağlı Agentlik tərəfindən qanunvericilik çərçivəsində zəruri tədbirlər həyata keçirilməkdədir.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da yerli mediaya açıqlamasında bildirib ki, içməli su istehsalı ilə məşğul olan sexlər Bakıda "krantdan" gələn xlorlu suyu qablaşdıraraq dağ suyu, mineral su adı altında satışa çıxardırlar. Birlik sədrinin sözlərinə görə, qablaşdırılmış suların bir litrini 0,90-1 manata satışa çıxardırlar. Bu istehlakçını aldatmaqdır. Hər bir brend suyun saxta variantları da var. Çünki, istehlakçı onun saxta olduğunu müəyyən edə bilmir. Sitat: "Qablaşdırılmış sular istehsal olunan zaman onun tərkibinə adi xlorlu su qatılır, yaxud da mərkəzləşmiş sudan istifadə etməklə satışa çıxardılır. AQTA məsələ sosial şəbəkələrdə ictimailəşdikdən sonra yoxlama aparsa da, indiyədək su sexləri bu qanunsuzluqlara yol veriblər. Çox yaxşı olardı ki, AQTA bütün su istehsalı ilə məşğul olan sexlərdə ekspertiza aparsın. Suyun tərkibinin etiketlərindəki məlumatların düz gəlib-gəlmədiyini araşdırsın".

Bir sözlə, bu gün dağ və bulaq suyu adı altında kifayət qədər istehlakçı aldadılır. Üstəlik, belə saxtakarlıqla məşğul olan sexlər, firmalar nə birdir, nə iki, nə beş, nə on! Bazardakı saxta suların miqyasını gördükdə onların kifayət qədər olduğunu görürük. Ən maraqlısı isə odur ki, həmin sexlər, firmalar bu saxtakarlıqla məşğul olmaq imkanını necə qazanırlar? Hər halda onlar başqa planetlərdə fəaliyyət göstərmir, bizə sırıdıqları saxta dağ sularını, bulaq sularını bazara başqa planetdən gətirmirlər. Elə isə necə olur ki, rəsmi qurumlar sözügedən firmaların, sexlərin varlığından yalnız kimlərsə şikayət etdikdən sonra xəbər tuturlar.

Bir az da dəqiqləşdirək - sadə vətəndaş evinin qapı-pəncərəsini dəyişdikdə belə hardansa bir bələdiyyə əməkdaşı, icra hakimiyyəti işçisi qəfil peyda olur, vətəndaşa haqlı-haqsız hansısa qanunu xatırladır və nəsə umur... Sual da budur: az qala, adi vətəndaşın evinin içindəki təmirtikintidən belə sanki qeybdən xəbər alıbmış kimi agah olan, onun başının üstünü kəsdirən məmurlar, doğrudanmı, burunlarının ucundakı sexlərdən məlumatsızdırlar? Həqiqətənmi, həmin sexlərdə saxta dağ suyunun, saxta bulaq suyunun şüşələrə doldurularaq istehlakçıların aldadılmasından məmurlarımız son anadək xəbərsiz olurlar? Vətəndaş evinin içində asqırdıqda xəbər tutan vəzifəlilərin, məsul şəxslərin bu boyda hoqqaları görməməsi ağlabatandırmı?!

Yuxarıdakı suallar üzərində baş sındırmq, onlara cavab axtarmaq artıqdır, çünki cavablar elə sualların özündə gizlənib.

Bazarı saxta, yaxud keyfiyyətsiz məhsulların başına götürməsində yalnız onları istehsal edənlər, ya da satışa çıxaranlar yox, buna başından bəri göz yuman məmurlar da günahkardırlar. Üstəlik, onların niyə göz yumduqlarını da hamımız yaxşı bilirik. Bəlkə, elə deyil?!

***Sənan Mirzə***

## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan demoqrafik problemin Astanasında

## Zümrüd Kazımova: "Cəmiyyətdə hələ də oğlan uşaqlarına üstünlük verilməsi, ailələrdə oğlan uşaqlarının daha çox istənilməsinə səbəb olur"




***Beynəlxalq təşkilatlar Azərbaycanda qız və oğlan uşaqlarının sayı ilə bağlı disbalansın olduğu barədə həyəcan təbili çalsalar da, ölkəmizdə bu demoqrafik problem günü-gündən dərinləşir. Belə ki, 100 qıza 105-107 oğlan düşməlidirsə, son vaxtlar bu bioloji norma iki dəfə artıb. Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərə görə, hazırda orta hesabla hər 1000 kişiyə 1010 qadın düşür.***

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-fevral ayları ərzində ölkədə 19158 doğulmuş körpə qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə bu göstərici 11,7 olub. Doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,2 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,8 faiz olub. Bu isə təbii cinsi tarazlığın pozulması kimi qiymətləndirilir. BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam edərsə, 2050-ci ilədək doğulan oğlanların sayı qızlardan 12-15 min çox olacaq. Bəs görəsən bu problemin qarşısını almaq üçün hansı addımlar atılmalıdır?

Mütəxəssislər əhalinin cins nisbətində belə arzuolunmaz fərqin olmasının selektiv abortlarla bağlı olduğunu söyləyir. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) həkim-metodisti Zümrüd Kazımova deyir ki, son illər selektiv abortların sayının artması qız uşaqlarının sayının azalmasına səbəb olur. Onun sözlərinə görə, cəmiyyətdə hələ də oğlan uşaqlarına üstünlük verilməsi, ailələrdə oğlan uşaqlarının daha çox istənilməsi müşahidə olunur. Bu isə qız uşaqlarının hələ ana bətnində məhvinə gətirib çıxardır. Həmsöhbətimiz bildirdi ki, 12 həftəyədək hamiləliyi olan qadının dölü abort etdirməsinə icazə verilir. On iki həftədən sonra dölün cinsi bəlli olduğundan, belə abortların tibbi və sosial göstəriş olmadan aparılması yolverilməzdir. Əgər 12 həftədən sonra abort tibbi və sosial göstəriş olmadan aparılırsa, bu selektiv abort hesab edilir.

Z. Kazımova selektiv abortların, abortların sayının artmasına təsir göstərdiyini bildirir. Bu isə ölkəmizdə doğulan qız uşaqlarının sayının günü-gündən azalmasına səbəb olur. Mərkəz səlahiyyətlisi deyir ki, selektiv abortlar sayəsində ailələrdə oğlan uşaqları üstünlük təşkil edir.

Həmsöhbətimiz bildirir ki, Azərbaycan ailələrində oğlan uşaqları ilə bağlı steriotiplər var. Oğlan uşaqlarına nəslin davamçısı kimi yanaşılır. Bu isə ailələrdə doğulan oğlan uşaqlarının sayını artırır.

"Azərbaycan qanunvericiliyinə görə, Azərbaycanda selektiv abortların aparılması qadağandır. Cinayət Məcəlləsinin 141-ci maddəsinə görə, qanunsuz abort etmə 500 manatdan-1000 manatadək cərimə, 6 ayadək islah işləri ilə cəzalandırılır. Qadının istəyinə görə, hamiləlik 12 həftəyədək pozula bilər. Çünki, 12 həftədə dölün cinsini tam təyin etmək mümkün deyil. Ancaq hamiləliyin 14-16 həftə arasında dölün cinsini təyin etmək mümkündür. Ona görə də 12 həftə keçdikdən sonra həkimlər abortu tibbi göstəriş olmadan aparmamalıdırlar".

Oğlanların sayının qızların sayını üstələməsi hazırda ciddi problem yaratmasa da, mütəxəssislər yaxın gələcəkdə bunun acı fəsadlarının olacağı barədə anonslar verirlər. Belə ki, qızların sayının azalmasının gələcəkdə əcnəbi nikahları artıracağı bildirilir. Bu isə əhalinin etnik tərkibinə ciddi təsir göstərəcək. Doğulan uşaqlar arasında cinsi tarazlığın pozulması nəticəsində oğlanların evlənməyə qız tapmayacağı da bildirilir.

Qeyd edək ki, Azərbaycanda abortların sayı da artıb. Dövlət Statistika Komitəsindən bildirilib ki, 2022-ci ildə 58 min abort qeydə alınıb. Onlardan 14 min 900-ü mini-abort, 500-ü dərman vasitələri ilə aparılan abortlar olub. 2018-ci ildə 36 min 141, 2019-cu ildə 37 min 308, 2020-ci ildə 34 min 719, 2021-ci ildə 46 min 877 abort qeydə alınıb.

Məlumat üçün bildirək ki, Dövlət Statistika Komitəsinin hesabatına görə, 2000-ci ildə hər 1000 kişiyə düşən qadınların sayı 1046 olubsa, 10 ildən sonra 2010-cu ildə bu rəqəm 1019-a enib. 2022-ci ildə isə bu rəqəm daha da azalaraq 1001-ə düşüb. Əhalinin ümumi sayına nisbətdə qadınların sayı kişilərin sayından o qədər də az olmasa da, son illər bərabərləşib. Belə ki, 2000-ci ildə kişilərin sayı 48,9, qadınların sayı isə 51,1 olub. 10 il sonra, 2010-cu ildə kişilərin say faizi 49,5, qadınların sayı isə 50,5-ə düşüb. 2022-ci ildə isə əhalinin ümumi say nisbətində qadın və kişilərin sayı bərabərləşərək 50,0 faiz təşkil edib.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

# 500-ə yaxın xarici şirkət Qarabağda işləmək istəyir



***Qarabağda biznes fəaliyyəti üçün bugünədək KOBİA-ya 1400-dən artıq müraciət daxil olub ki, onların təqribin 500-ə yaxını xarici şirkətlərin müraciətlərdir.***

"Unikal"ın məlumatına görə, bunu Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov "Heydər Əliyev və Azərbaycan sahibkarlığı" mövzusunda yerli şirkətlərin tanıtım sərgisində deyib.

O qeyd edib ki, Vətən Müharibəsi nəticəsində müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən qələbə və Qarabağ bölgəsinin işğaldan azad edilməsi də ölkəmizdə bizneslərin inkişaf üçün əlavə mənbələr açıb.

"KOBİA tərəfindən həm Qarabağın iqtisadi potensialının beynəlxalq müstəvidə tanıdılması, həm də işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlıq subyektlərinin müraciətlərinin toplanması istiqamətində işlər davam etdirilir. Bugünədək KOBİA-ya 1400-dən artıq müraciət daxil olub ki, onların təqribin 500-ə yaxını xarici şirkətlərin müraciətlərdir. Sadalanan bu rəqəmlər həm yerli, həm də xarici sahibkarların Qarabağda biznes fəaliyyətinə olan marağını göstərir. Əlbəttə ki, dövlətin tətbiq etdiyi fiskal və sosial güzəştlər fonunda sahibkarların bu sahədə fəallığı bölgənin qısa müddət ərzində bərpasına və inkişafına öz töhfəsini verəcəkdir", - Orxan Məmmədov əlavə edib.

# BQXK saxlanılan iki Ermənistan vətəndaşına baş çəkdi




***Ötən gün Beynəlxalq Qızıl Xaç Komitəsinin əməkdaşları bu yaxınlarda saxlanılan iki Ermənistan vətəndaşına baş çəkiblər.***

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova "Unikal"a bildirib ki, onlarla təkbətək görüş keçirilib və ailələri ilə Qızıl Xaç Məktubu vasitəsilə əlaqə yaratmaq imkanı verilib.

Mandatına uyğun olaraq, BQXK başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir və onların ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır.

# "Muğan Bank" Əhməd Vəliyevin övladlarının nəzarətinə keçdi




***"Muğan Bank" ASC-yə 2 yeni səhmdar gəlib.***

"Unikal" "Report"a istinadən xəbər verir ki, bunlar keçmiş deputat, Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyevin oğulları - Samir və Munir Vəliyevlərdir.

Onların hər biri Bankda 40 % pay əldə edib. Əvəzində digər səhmdarların payı azalıb. Belə ki, "Muğan Bank"ın Müşahidə Şurasının üzvü Elmir Mehdiyevin payı 67,74 %-dən 0,78 %-ə, Fəridə Mehdiyevanın payı 21,61 %-dən 10,89 %-ə, Ə.Vəliyevin qızı Vəfa Vəliyevanın payı isə 10,65 %-dən 8,33 %-ə düşüb.

Beləliklə, Vəliyevlərin Bankdakı payı 10,65 %-dən 88,33 %-ə, Mehdiyevlərin payı isə 89,35 %-dən 11,67 %-ə dəyişib.

Xatırladaq ki, "Muğan Bank" 1992-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 137,5 milyon manatdır.

# Sayğaclara görə pul tələb edən MTK-lara xəbərdarlıq olundu



***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti mənzil-tikinti kooperativlərinə (MTK) xəbərdarlıq edib.***

"Unikal" bu barədə Dövlət Xidmətinə istinadən xəbər verir. Məlumata görə, qurumda yeni tikilmiş çoxmənzilli yaşayış binalarında quraşdırılan sayğaclara görə mülkiyyətçilərdən əsassız olaraq pul tələb edilməsi barədə vətəndaş müraciətlərinə baxılıb. Araşdırmalar zamanı MTK-larla alıcılar arasında bağlanmış müqavilələrdə istehlakçıların hüquqlarını məhdudlaşdıran şərtlərin mövcud olduğu aşkarlanıb. Belə ki, qanunvericiliyin tələblərinə zidd olaraq mənzillərdə quraşdırılacaq su, elektrik və qaz sayğaclarına görə MTK-lar tərəfindən mülkiyyətçilərdən əlavə ödənişlərin tələb edilməsi halları müəyyən edilib.

Qanunvericiliyin tələblərinə uyğun olaraq su, elektrik və qaz təchizatı müəssisələri ilə istehlakçılar arasında bağlanmış müqavilələrə əsasən sayğacların təchiz edilməsi və quraşdırılması təchizatçılar tərəfindən, təchizatçıların vəsaiti hesabına həyata keçirilir. Bu zaman üçüncü şəxslərin, o cümlədən mənzil-tikinti kooperativinin iştirakı nəzərdə tutulmayıb.

Təbii inhisar subyektlərinə çoxmənzilli yaşayış binalarında yerləşən mənzillərə sayğacların təbii inhisar subyektlərinin vəsaiti hesabına quraşdırılması barədə 2021-2022-ci illərdə Dövlət Xidməti müvafiq göstərişlər verib.

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunun tələblərinə əsasən, qanunvericilikdə nəzərdə tutulan hüquqlarla müqayisədə istehlakçının hüquqlarını məhdudlaşdıran müqavilə şərtləri etibarsız sayılır. Həmçinin İnzibati Xətalar Məcəlləsinin tələblərinə əsasən, istehlakçının hüquqlarını məhdudlaşdıran şərtlərin müqaviləyə daxil edilməsi ilə bağlı inzibati xətaya görə hüquqi şəxslərin dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilməsi nəzərdə tutulub.

Qeyd olunanları nəzərə alaraq, Dövlət Xidməti MTK-lara mənzillərin alqı-satqısı zamanı müqaviləyə istehlakçı hüquqlarını məhdudlaşdıran şərtlərin daxil edilməməsi və qanunvericiliyin tələblərinə riayət edilməsi barədə bildirişlər göndərib.

# Bankların adından saxta reklamlar paylaşılır

***Sosial şəbəkələrdə ölkədə fəaliyyət göstərən banklar adından sosial kampaniyalar barədə saxta reklamlar paylaşılır. Vətəndaşlardan kampaniyada iştirak üçün göndərilən keçidə daxil olaraq bank və digər fərdi məlumatlarını yazmaq tələb olunur.***




"Unikal" xəbər verir ki, bu barədə Elektron Təhlükəsizlik Xidməti məlumat yayıb. Elektron Təhlükəsizlik Xidməti vətəndaşlara belə reklamlara etimad etməməyi və hər hansı şirkətin həyata keçirdiyi kampaniyalarla bağlı məlumatlarla qarşılaşdıqda, ilk növbədə, həmin şirkətlə əlaqə saxlamağı və yaxud şirkətin rəsmi veb saytına daxil olaraq məlumatı dəqiqləşdirməri tövsiyə olunur.

# Qanunsuz balıq ovlayan şəxslər cəzalandırıldı

***Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən növbəti nəzarət tədbirləri zamanı Mingəçevir Su Anbarında və Kür çayında qanunsuz balıq ovlayan şəxslər saxlanılıb.***

Xidmət rəsmisi Bəhruz Məhəmmədov "Unikal"a bildirib ki, araşdırma zamanı balıq ovlayan şəxslərin Mingəçevir şəhər sakini Təyyar Mustafayev, Yevlax rayon sakinləri Təbriz Yusifov, Yusif Əzizov, Yadigar Allahverdiyev, İlqar Məmmədov, Zaqatala rayon sakini Vüqar Həsənov, Neftçala rayon sakini Rüstəm Kazımov olduğu müəyyən edilib və onlardan istifadəsi qadağan olunmuş ov alətləri götürülüb. "Faktlarla bağlı qanun pozuculari barəsində protokol tərtib olunub və qanunamüvafiq tədbirlər görülüb".

# QHT-lərdən Ermənistana etiraz bəyanatı

***Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT) Ermənistanın Arazdəyəndə yeni ekoloji fəlakətə yol açacaq layihəsi əleyhinə bəyanat yayıblar.***



"Unikal" xəbər verir ki, bəyanatda deyilir: "Ermənistan mətbuatında yayılan məlumatlara əsasən, Ermənistan Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgəsində - Arazdəyəndə iri metallurgiya zavodunu inşa etməyə hazırlaşır. Tikintiyə 70 milyon dollar ABŞ sərmayəsi yatırılacaq, zavodun hündürlüyü 30 m, sahəsi 16 500 kvadratmetr olacaq. Bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantıları bölgədəki ekosistemə böyük zərbə vura bilər. Onun tullantılarının Araz çayına axıdılması riski həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalıdır. Ermənistanın dağmədən sənayesində heç bir beynəlxalq standartlara əməl edilməməsi həm Azərbaycan, həm də ümumilikdə bölgə üçün ciddi ekoloji təhdid yaradır. Azərbaycan tərəfi ilə razılaşdırmadan sərhəddə belə bir müəssisənin tikintisi "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 1991-ci il Espo Konvensiyasının kobud şəkildə pozulmasıdır. Azərbaycan və Ermənistan həmin Konvensiyanın tərəfləridir və Espo Konvensiyasından irəli gələrək, bu zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işi aparılmalı, tikinti ilə əlaqədar qiymətləndirmə sənədinə qonşu dövlət olan Azərbaycanın müvafiq qurumları baxmalı, eyni zamanda bölgəyə yaxın yaşayan azərbaycanlıların rəyi nəzərə alınmalıdır.

Ermənistanın bu tələblərə riayət etməməsi bir daha onu göstərir ki, Ermənistan regionda destruktiv siyasət aparır, tərəf olduğu beynəlxalq sənədlərin müddəalarını, beynəlxalq öhdəliklərini kobud şəkildə pozur.

Ermənistan tərəfindən Azərbaycana qarşı ekoloji terror və ekosid siyasətinin aparılması yenilik deyil. "Metsamor"un uzun illər regionun ətraf mühitinə təhdid kimi qalması, işğal dövründə Qarabağda törədilmiş geniş miqyaslı ekoloji faciələr, yüksək kimyəvi tərkibli istehsalat sularının təmizlənmədən Oxçuçaya axıdılması buna əyani misaldır. Ermənistan Oxçuçayı kəskin şəkildə çirkləndirib. Bu isə çayın Azərbaycan ərazisi boyu keçdiyi hissənin ekoloji sistemini bərpa olunmaz deqradasiyaya məruz qoyub. Alman şirkəti "Cronimet" bu ekoloji cinayətdə Ermənistanla birgə iştirak edib. Təəssüflər olsun ki, bu günə qədər də Almaniya hökuməti bu istiqamətdə heç bir praktik addım atmayıb.

Törətdiyi ekoloji cinayətlərlə Ermənistan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusilə də hər kəsin sağlamlığının təmin edilməsinə dair 3-cü, təmiz su və sanitariya ilə bağlı 6-cı, iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair 13-cü, torpaq ekosisteminin mühafizəsi üzrə 15-ci məqsədlərinin tamamilə əleyhinə gedir.

Məlum olduğu kimi, 2022-ci ildə BMT təmiz, sağlam və davamlı ətraf mühiti insan hüququ kimi tanımışdır. Ermənistan ekologiyaya ciddi ziyan vurmaqla, Azərbaycan, o cümlədən region əhalisinin insan hüquqlarını kobud şəkildə pozur.

Bundan başqa, müxtəlif beynəlxalq sənədlər, o cümlədən biznes və insan hüquqları üzrə rəhbər prinsiplərə görə iqtisadi fəaliyyət insan hüquqlarına ziyan vurulmadan həyata keçirilməlidir. Bu halda da Ermənistan məsuliyyətsiz davranır, təmiz, sağlam və davamlı ətraf mühit hüququna məhəl qoymur və sırf özünün iqtisadi maraqlarını önə çəkir.

Azərbaycanda fəaliyyət göstərən ekoloji yönümlü qeyri-hökumət təşkilatları olaraq biz, başda BMT-nin Ətraf Mühit Proqramı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin ətraf mühit üzrə xüsusi məruzəçisi, BMT-nin zərərli maddələr və insan hüquqları üzrə xüsusi məruzəçisi olmaqla, müvafiq beynəlxalq təşkilatlara müraciət edərək, onları bu fakta reaksiya verməyə və Ermənistanın növbəti ekoloji terroruna son qoymağa çağırırıq.

Amerika Birləşmiş Ştatları hökumətinə müraciət edirik ki, Arazdəyəndə iri metallurgiya zavodu tikməyə hazırlaşan, ərazisində qeydiyyatda olan şirkəti məsuliyyətli davranışa dəvət etsin, onun qanunsuzluqlarına göz yummasın. Amerika Birləşmiş Ştatları rəsmiləri, o cümlədən Azərbaycandakı və Ermənistandakı ABŞ səfirlikləri susmamalı, məsələyə münasibət bildirməlidirlər.

Bir buradan Ermənistandakı ekofəallara da müraciət edirik. Bu, ilk növbədə, Ermənistanın özünün də ekoloji vəziyyətinə mənfi təsir edəcək. Bölgəni təhlükəyə sürükləyən bu prosesi durdurmaq üçün hərəkət zamanıdır".

# Talıbovlar "Naxçıvan Bank"dakı bütün paylarını satdılar

***Azərbaycanın yeganə regional bankı - "Naxçıvan Bank" ASC-nin yeni səhmdarları açıqlanıb.***

"Unikal" report-a istinadən xəbər verir ki, Bankın səhmlərinin 63,66%-i Hüseyn Məmmədova, 26,52%-i Rüfət Məmmədova (Müşahidə Şurasının üzvü), 9,82%-i isə Binnət Novruzova (Müşahidə Şurasının sədri) məxsusdur.



Bundan əvvəl səhmlər Naxçıvan MR-in Ali Məclisinin keçmiş sədri Vasif Talıbovun ailə üzvlərinə məxsus olub. Belə ki, onun oğlu Rza Talıbov kredit təşkilatında 63,66%, digər oğlu Seymur Talıbov 20,48%, qızı Baharxanım Talıbova 9,82%, xanımı Sevil Sultanova isə 6,04% paya malik olub.

Xatırladaq ki, "Naxçıvan Bank" 2008-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 94 milyon manatdır.

# Yol polisindən nasaz avtobus sürənlərə xəbərdarlıq



***Baş Dövlət Yol Polisi İdarəsinin paytaxtın Sabunçu və Qaradağ rayonlarında yerləşən Texniki Müayinə Mərkəzlərində xidmətin fasiləsiz təşkili nəticəsində gündüz saatlarında sərnişin daşınması ilə məşğul olan avtobusların sahiblərinə və sürücülərinə nəqliyyat vasitələrini iş saatlarından sonra texniki baxışa təqdim etmək imkanı yaradılıb.***

Yaradılan şəraitə baxmayaraq sürücülər arasında müxtəlif yollarla nəqliyyat vasitələrini texniki baxışa təqdim etmək istəməyənlərə hələ də rast gəlinir. Texniki baxışa təqdim edilməyən avtobuslar isə sərnişinlərin və yollarda digər hərəkət iştirakçılarının həyatına ciddi təhlükə yaradır.

"Unikal" xəbər verir ki, araşdırmalar zamanı qeyri-qanuni yollara əl ataraq avtomobili texniki baxışa təqdim etməyən avtobusların əsasən mərkəzdən kənarda, kənd və qəsəbələr arasında fəaliyyət göstərdiyi müəyyən edilib. Həmin sürücülərin, avtobusların məxsus olduğu şirkətlərin müəyyən edilməsi, bu sahədə nizam-intizamın yaradılması məqsədi ilə Baş Dövlət Yol Polis İdarəsinin əməkdaşları tərəfindən mütəmadi olaraq profilaktik tədbirlər həyata keçirilir. Son bir neçə gün ərzində keçirilən belə tədbirlər nəticəsində texniki baxışdan yayınmaq üçün dövlət qeydiyyat nişanlarına müdaxilə edən, habelə digər üsullara əl atan 150-dən artıq avtobus və mikroavtobus sürücüsü saxlanılıb. Həmin sürücülər barəsində qanunauyğun tədbirlər görülüb. Həmin avtobuslardan 100-dən çoxunun dövlət nömrə nişanının dəyişdirilməsi, nasazlıqların aradan qaldırılması və texniki baxışdan keçirilməsi təmin edilib.

Onların mənsub olduğu sərnişindaşıma şirkətləri qarşısında nəqliyyat vasitələrinin dövlət nişanlarının bərpa edilməsi tələbi qoyulub.

Hər kəsi texniki cəhətdən nasaz avtobuslarla səfər etməyin ağır faciələrə səbəb ola biləcəyini anlamağa və polis əməkdaşlarının bu sahədə həyata keçirdikləri profilaktik tədbirlərə öz töhvəsini verməyə çağırırıq. Avtomobillərin texniki baxışdan keçirilməsi təkcə yol hərəkəti iştirakçılarının təhlükəsizliyi üçün yox, həmçinin ictimai-asayişin qorunması və cinayətlərin qarşısınını alınması üçün də qanunla nəzərdə tutulan vacib tələblərdən biridir.

Xatırladaq ki, sürücülər avtomobillərinin texniki baxışa təqdim edilməsi barədə onları maraqlandıran məsələlərlə bağlı operativ məlumat almaq üçün 012-590-71-13 nömrəsi və "902" qaynar xətti ilə əlaqə saxlaya bilərlər.

# "AzInTelecom" informasiya təhlükəsizliyi mövzusunda tədbir keçirdi

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan "AzInTelecom" MMC Türkiyənin qabaqcıl texnologiya şirkətlərindən olan "Çekino Group"la birlikdə Bakıda "Son istifadəçi təhlükəsizliyinin idarəedilməsi" mövzusunda konfrans keçirib.***

"Unikal" xəbər verir ki, dövlət qurumları və özəl şirkətlərin informasiya təhlükəsizliyi üzrə məsul şəxsləri və mütəxəssislərinin iştirak etdiyi konfrans son istifadəçi təhlükəsizliyi riskləri, risklərə qarşı preventiv və cavab tədbirlərinin görülməsi, ümumilikdə son istifadəçi təhlükəsizliyinin təmin olunması mövzularını əhatə edib.

Giriş sözü ilə çıxış edən "AzInTelecom"un Kommersiya departamentinin direktoru Fərrux Fərəcullayev bildirib ki, ölkənin bir sıra böyük şirkət və dövlət qurumlarının informasiya resurslarını etibar etdiyi "AzInTelecom"un fəaliyyət istiqamətləri Azərbaycan və xarici ölkələr arasında beynəlxalq səs trafiki mübadiləsinin təşkili, bulud xidmətləri, mərkəzləşdirilmiş informasiya sistemləri və biznes həllərdən ibarətdir.

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının sədri Elvin Balacanov kibertəhlükəsizliyin artıq bütün şirkətlər üçün ən vacib nüanslardan birinə çevrildiyini və bu sahədə fəaliyyət göstərən qurumların kompakt əməkdaşlığının vacibliyini vurğulayıb.

"AzInTelecom"un İnformasiya təhlükəsizliyinin təşkili şöbəsinin müdiri




Kamran Kərimli son istifadəçi təhlükəsizliyinin risklərinə daxil olan gündəlik fəaliyyət zamanı qarşılaşdığımız potensial təhlükələrdən danışıb.

"AzInTelecom"un İnformasiya təhlükəsizliyi üzrə məhsul sahibi Arzu Rəhimli qeyd edib ki, risklərə qarşı qabaqlayıcı və müdaxilə tədbirlərinin görülməsi aparıcı rol oynayır. Dövlət qurumları və özəl şirkətlərə informasiya təhlükəsizliyinin auditi, konsaltinqi, kibertəhlükəsizlik və Təhlükəsizlik Əməliyyat Mərkəzi (SOC) xidməti göstərən "AzInTelecom" MMC-nin də bu sahədə davamlı işlər gördüyünü vurğulayan Arzu Rəhimli yerli və xarici şirkətlərlə mütəmadi olaraq məlumat mübadiləsi aparıldığını da vurğulayıb.

"Çekino Group"un baş direktorunun müavini Arzu Car iştirakçılara şirkət haqqında məlumat verib. Bildirib ki, "Çekino Group" informasiya texnologiyaları şirkəti olaraq, proaktiv və kontekst əsaslı texnologiyalar, məlumat mərkəzli inteqrasiya olunmuş həllər və uzunmüddətli təcrübəsi sayəsində aparıcı texnologiya şirkəti olmaq yolunda mühüm addımlar atmaqdadır.

"Çekino Group"un baş direktoru Erol Yılmaz konfrans zamanı sistem, son istifadəçi və təhlükəsizlik mövzusunda çıxış edərək şirkətin yaratdığı "Gardiyan" məhsulu barədə danışıb.

E.Yılmaz qeyd edib ki, bu məhsul böyük şəbəkələrdə bütün sistemin əvvəldən sona kimi təhlükəsiz monitorinqini və idarə olunmasını təmin edən, korporativ strategiyaya uyğun olaraq sistem idarəçilərinə məlumat verən və problemlərə qarşı sürətli şəkildə lazımi qabaqlayıcı tədbirlərin alınmasına imkan yaradan rəqəmsal həldir.

İstanbul Böyükşəhər Bələdiyyəsinin İnformasiya emalı şöbəsinin rəhbəri Erol Özgüner bələdiyyənin tərkibində 4 dövlət qurumunun olduğunu və ümumilikdə 53 mindən çox şəxsin çalışdığını diqqətə çatdırıb. Həmçinin "Gardiyan" məhsulu sayəsində şirkətdaxili şəbəkələrdə sistemin təhlükəsiz monitorinq və idarə olunduğunu, məhsul sayəsində risklərə qarşı qabaqlayıcı tədbirlərin görüldüyünü deyib.

Tədbir zamanı həvəsləndirici müsabiqə təşkil olunaraq fərqlənən 10 iştirakçı mükafatlandırılıb.



# Qazaxda subartezian quyuları bərpa edilir

***Qazaxda subartezian quyuları bərpa edilir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Qazax rayonunda hər il əkilən kənd təsərrüfatı bitkilərinin suvarılması üçün Qazax Suvarma Sistemləri İdarəsi tərəfindən meliorativ tədbirlər mütəmadi olaraq davam edir.***

İdarə rayonun 19 min hektara yaxın kənd təsərrüfatı bitkiləri əkilmiş pay torpaq və həyətyanı sahələrinin suvarma suyu ilə təmin edilməsinə xidmət edir. Həmin sahələrin 7100 hektarı mexaniki üsulla yəni nasos stansiyaları, 11810 hektarı isə öz axımı ilə açıq kanallar və arxlar vasitəsilə suvarılır. Ümumillikdə rayon ərazisində Suvarma Sistemləri İdarəsinin balansına 911 km uzunluğunda kanallar, arxlar boru kəmərləri və qapalı şəbəkələr mövcuddur. Bundan 486 km açıq arx və kanallar, 67 km-i isə beton üzlüklü kanallardır. İlin əvvəlindən 35 ədəd subartezian quyusunda, 15 ədəd hidrotexniki qurğularda cari təmir işləri görülüb. Hazırda 2 ədəd subartezian quyusunda əsaslı təmir işləri aparılır.

Rayon ərazisində hər il yeni əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə örtülü suvarma şəbəkələri çəkilərək istismara verilir. İlin əvvəlindən bu günə kimi cari təmir işləri hesabına 156 min m3 həcmində arx və kanallarda lildən və kol-kosdan təmizləmə işləri aparılıb. Bununla da su itkisinin qarşısının alınması ilə bərabər suvarma suyunun əkin sahələrinə maneəsiz çatdırılmasına şərait yaranıb. Bundan başqa idarənin balansında 21 ədəd nasos stansiyası var ki, 2 ədəd nasos stansiyasında da təmir işləri yerinə yetirilib. Son illər Qazax rayonunda əkinçiliklə məşğul olan fermerlər vaxtında sahələrini suvardıqlarından məhsuldarlıq hər il artmaqdadır. Hazırda əkin sahələrində suvarma işləri normalara uyğun olaraq davam edir.

Qeyd edək ki, Qazax rayonunda sahələrin suvarılması üçün beş mənbədən Ağstafaçay, Coğaz çay, İncəsu çay su anbarlarından, Kür və Xram çaylarından su götürülür.

***Hüseyn***

# Bu yollarda görmə məsafəsi məhdudlaşacaq

***Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə xəbərdarlıq edib.***

İdarədən "Unikal"a daxil olan xəbərdarlıqda deyilir:

"Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata əsasən, bu gün ölkə ərazisində havanın qeyri-sabit keçəcəyi, yağış yağacağı gözlənilir.

Yağıntılı və dumanlı hava şəraiti ilə əlaqədar magistral avtomobil yollarında görmə məsafəsinin 500-800 metrədək məhdudlaşacağı ehtimal olunduğundan, Baş Dövlət Yol Polisi İdarəsi hərəkət iştirakçılarına müraciət edərək onları yola çıxarkən diqqətli olmağa, xüsusilə sürücüləri yol və meteoroloji şəraiti nəzərə almağa, sürət həddini minimuma endirməyə, nəqliyyat vasitələrinin texniki sazlığını nəzarətdə saxlamağa, təhlükəsizlik qaydalarına ciddi riayət etməyə çağırır".

## "Ukrayna Rusiya ilə sülh bağlamağa hazır idi, amma..." - Patruşev



***"Ukrayna Rusiya ilə sülh bağlamağa hazır idi, bu məsələ ilə bağlı öz yazılı təkliflərini verdi və Moskva onları prinsipial olaraq bəyəndi, lakin ABŞ-ın təzyiqi ilə Kiyev geri çəkildi".***

"Unikal" rus mətbuatına istinadən verirr ki, bunu Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev KTMT ölkələrinin Təhlükəsizlik Şuralarının katibləri ilə görüşündə deyib.

"Səhər danışıqlar zamanı bizə təkliflər verdilər, axşam isə dedilər ki, yox, biz onlardan imtina edirik. ABŞ onlara təzyiq edib və heç bir danışıqlar aparmamağa çağırıb", - Patruşev əlavə edib.

## "Belqorod vilayətinin atəşə tutulmasında Kiyevin əli yoxdur" - Zelenski



***"Ötən ilin sentyabrında "Şimal axını" və "Şimal axını 2" qaz kəmərlərində baş verən partlayışlarda, eləcə də Belqorod vilayətində baş verən atışmalarda Ukrayna iştirak etməyib.***

"Unikal" xəbər verir ki, bunu Ukrayna lideri Volodimir Zelenski "Politico" nəşrinə müsahibəsində deyib.

"Mən prezidentəm və müvafiq sərəncamlar verirəm. Ukrayna belə bir şey etməyib", - Zelenski vurğulayıb.

Qeyd edək ki, son günlərdə Rusiya Belqorod vilayətinin Ukrayna Silahlı Qüvvələri tərəfindən atəşə tutulduğunu və nəticədə evlərə, obyektlərə ziyan dəydiyini açıqlamşdı.

***Gülayə***

## ABŞ Ermənistanı ittiham etdi




***Rusiya sanksiyalara baxmayaraq, əsas elektron komponentlərin idxalının həcmini bərpa edə bilib.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Dövlət Departamentinin sanksiyalar üzrə koordinatoru Cim O'Brayen bildirib.

O, bildirib ki, ölkəyə əsas mikroçiplərin və elektronikanın idxalı müharibədən əvvəlki səviyyəyə qayıdıb: "Problem ondan ibarətdir ki, Avropa şirkətləri materialları başqa ölkələrə satır, onlar da öz növbəsində onları Rusiyaya satırlar. Bu komponentlər müasir silahların istehsalında çox vacibdir. ABŞ sanksiyalardan yayınmağa kömək edən 5 ölkəni müəyyən edib. bunlar: Türkiyə, Qazaxıstan, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri və Ermənistandır".

***Ağarza Elçinoğlu***

## Fransa 7 illik müdafiə büdcəsini 413 milyard avroya çatdırdı



***Fransanın 2024-2030-cu illər üçün müdafiə büdcəsi 413 milyard avroya çatdırılıb.***

"Unikal" xarici KİV-ə istinadla xəbər verir ki, bu barədə Fransa parlamenti yeni qanun layihəsini qəbul edib.

Qanun layihəsinin lehinə 408, əleyhinə isə 87 deputat səs verib. Məsələ parlamentin digər qanadı olan Senatda da müzakirə olunacaq.

## "Ermənistan və Azərbaycan məqbul həll yolu tapmağa çalışmalıdırlar" - Lukaşenko



***Ermənistan və Azərbaycan münaqişənin aradan qaldırılması üçün qarşılıqlı məqbul həll yolu tapmağa çalışmalıdırlar.***

"Unikal" xəbər verir ki, bu barədə Belarus prezidenti Aleksandr Lukaşenko KTMT ölkələrinin Təhlükəsizlik Şuralarının katibləri ilə görüşündə bildirib.

"Həm azərbaycanlılar, həm də ermənilər bizə yaxındırlar. Onlar bir əlin iki barmağı kimidir, nə edə bilərik?" - deyən Belarus lideri bildirib ki, əvvəlki illərdə o, tərəflər arasında münaqişənin həlli üçün böyük səylər göstərib, Ermənistan və Azərbaycan liderləri arasında əməkdaşlığın qurulmasına çalışıb: "İndi hər şey mürəkkəbləşib, bu vəziyyəti nizamlamalıyıq. Belə olan halda, təbii ki, mən Nikol Paşinyanı dəstəkləyirəm, başa düşürəm ki, bütün bu problemlər onun üzərinə düşür. Ona görə də indi bizə səbr və problemin həllini tapmaq üçün cəhdlər lazımdır ki, bu, həm Ermənistan, həm də Azərbaycan üçün faydalı olsun".

Onun sözlərinə görə, KTMT ölkələrinin Təhlükəsizlik Şuralarının katibləri də öz təkliflərini verməlidirlər, çünki onlar bu vəziyyətdə kənar müşahidəçi deyillər.

***Ağarza Elçinoğlu***

## Zaxarova Ermənistanı anti-Rusiya hücumlarında ittiham etdi



***"Ermənistan Təhlükəsizlik Şurası katibinin bəyanatında da Moskvaya qarşı hücumlar olub".***

"Unikal" xəbər verir ki, bunu həftəlik brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Ermənistanın Rusiya FTX-nin sərhəd xidməti tərəfindən nəqliyyat rabitəsinə nəzarətdən imtina etməsi barədə bəyanatını şərh edərkən deyib.

"Əvvəla, mən istərdim ki, Ermənistanın adını çəkdiyiniz yüksək rütbəli nümayəndəsi həl də qərar versin: ya normal dialoq olsun, ya da belə bəyanatlar. Biz birincini seçirik", - Zaxarova bildirib.

Qeyd edək ki, Ermənistan Rusiya Federasiyası FTX-nin sərhəd xidməti tərəfindən nəqliyyat kommunikasiyalarına nəzarət etməkdən imtina edib.

Azərbaycan, Ermənistan və Rusiya Federasiyası rəhbərlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatına əsasən, nəqliyyat əlaqələrinə nəzarəti Rusiya FTX-nin sərhəd xidməti həyata keçirir.

***Gülayə Mecid***

## "Rusiya hökuməti Ermənistanı tərk etdi" - Alman deputat

***"Rusiya rejimi, rus hökuməti Ermənistanı tərk etdi".***

"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, bunu Almaniya Bundestaqının Beynəlxalq əlaqələr komissiyasının sədri Mixael Rott İrəvandakı çıxışında deyib.

Rusların Aİ-nin Ermənistandakı missiyasının Rusiyanı bu ölkədən çıxarmaq olduğu ilə bağlı açıqlamalarına cavab verən Rott bildirib ki, Rusiya xarici işlər naziri özünün sonsuz imperialist xarici siyasətini davam etdirir və Kremlin təbliğatını yayır.

Onun sözlərinə görə, Aİ missiyası Ermənistan tərəfinin dəvəti ilə Ermənistandadır.

***Gülayən Mecid***



## Hakan Fidan Blinkenlə Azərbaycan-Ermənistan normallaşma prosesini müzakirə etdi

***Türkiyənin yeni xarici işlər naziri Hakan Fidan və ABŞ-nin dövlət katibi Antoni Blinken arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, Blinken XİN rəhbərini yeni vəzifəsi münasibətilə təbrik edib.

Telefon danışığı zamanı İsveçin NATO-ya üzvlüyü, Türkiyə-Ermənistan və Azərbaycan-Ermənistan arasında



normallaşma prosesləri, F-16-ların alınması və modernləşdirilməsi, həmçinin Ukrayna taxıl sazişi də müzakirə edilib.

Tərəflər hər iki ölkə arasında ümumi gündəlik məsələləri müzakirə etmək üçün mümkün qədər tez bir zamanda yenidən görüşməyə hazır olduqlarını vurğulayıblar.

***Ağarza Elçinoğlu***

# Azərbaycan çempionatında yeni mövsüm bu tarixdə başlayacaq

***Futbol üzrə Azərbaycan Premyer Liqasında 2023/2024 mövsümünün start tarixi müəyyənləşib.***

"Unikal" Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, yeni mövsüm avqustun 4-də başlanacaq.

Premyer Liqadan bir gün sonra isə İcraiyyə Komitəsinin qərarı ilə bərpa edilmiş əvəzedicilərin yarışına start veriləcək.

Turnirin püşkatması və digər detallar daha sonra açıqlanacaq.




# "Liverpul" dünya çempionunu transfer etdi



***İngiltərənin "Liverpul" klubu heyətini yeni futbolçu ilə gücləndirib.***

"Unikal" xəbər verir ki, "Brayton"dan Aleksis Makallister transfer olunub. 25 yaşlı yarımmüdafiəçi ilə uzunmüddətli müqavilə imzalanıb. Sözləşmənin detalları barədə məlumat verilməyib.

Qeyd edək ki, Aleksis Makallister ötən il Argentina millisi ilə Qətərdəki dünya çempionatının qalibi olub.

# Bu idman növləri insan ömrünü uzadır

***Müxtəlif idman növləri insan ömrünü uzadır.***

"Unikal" xəbər verir ki, bu barədə britaniyalı alimlər tədqiqat aparıblar. Elm adamları müəyyən istirahət idman növləri ilə ölüm halları arasındakı əlaqəni araşdırıb.

80.000-dən çox britaniyalı böyüklər arasında aparılan araşdırmada, velosiped sürmə, üzgüçülük, aerobika və raketka idmanlarının daha uzun ömür ilə əlaqəli olduğu bildirilib. Həmçinin, gəzinti və yüksək intensivlik də daxil olmaqla, asudə vaxtda fiziki fəaliyyətin ürək-damar xəstəlikləri və xərçəng riskinin aşağı olması ilə əlaqəli olduğu qeyd olunub.

*Gülayə Mecid*



# Ronaldo Səudiyyə Ərəbistanında rəmzi komandaya düşə bilmədi

***Səudiyyə Ərəbistanı çempionatının mətbuat xidməti 2022/2023 mövsümünün rəmzi komandasını təqdim edib.***

Qol.az xəbər verir ki, "Əl-Nəsr"in hücumçusu Kriştiano Ronaldo ilk 11-liyə daxil edilməyib.

Qapıçı: Qroye ("Əl-İttihad")

Müdafiəçilər: Konan ("Əl-Nəsr"), Şarahili, Heqazi, Əl-Olayyan (hamısı "Əl-İttihad")



Yarımmüdafiəçilər: Qustavo ("Əl-Nəsr"), Romarinyo ("Əl-İttihad"), Qamarra ("Əl-Taavun")

Hücumçular: Əl-Breykan ("Əl-Fateh"), İqalo ("Əl-Hilal"), Batna ("Əl-Fateh").

2022-ci ilin dekabrında "Əl-Nəsr"ə transfer olunan Ronaldo ötən mövsüm Səudiyyə Ərəbistanı Premyer Liqasında 16 oyuna çıxıb, 14 qol vurub və 2 qolun ötürməsini verib.

# III Avropa Oyunlarında ölkəmizi onlar təmsil edəcək

***Bu il Polşada keçiriləcək III Avropa Oyunlarında iştirak edəcək Azərbaycan qılıncoynadanları açıqlanıb.***

Federasiyadan verilən məlumata görə, yarışda milli komandanın 11 üzvü qüvvəsini sınayacaq.

Qadın sablyaçılardan Anna Başta, Valeriya Bolşakova, Səbinə Kərimova və Palina Kaspiaroviç, kişilərdən isə Murad Əkbərov, Saleh Məmmədov, Maqsud Hüseynli və Ayxan Xasıyev yarışda medal qazanmağa çalışacaqlar.

Azərbaycanı şpaqa növündə isə Kənan Əliyev, Barat Quliyev və Ruslan Həsənov təmsil edəcəklər.

Qeyd edək ki, III Avropa oyunları iyunun 21-dən iyulun 2-dək təşkil olunacaq.





# "Barselona" Neymarı geri qaytarır

***Lionel Messini heyətinə qata bilməyən "Barselona"nın yeni hədəfi bəlli olub.***

İspaniya nəhəngi Neymarı geri qaytarmağa qərar verib.

PSJ-nin braziliyalı ulduzunun keçidində əsas problem onun maaşının yüksək olmasıdır. PSJ də transfer üçün böyük məbləğ tələb edə bilər.

Qeyd edək ki, PSJ-dən ayrıldıqdan sonra azad agent olan Messi "İnter Mayami"yə keçəcəyini açıqlayıb.

# "Qarabağ" onunla yolları ayırdı



***"Qarabağ"ın akademiya koordinatoru Tacettin Doğan klubdan ayrılıb.***

Qol.az xəbər verir ki, bu barədə Ağdam təmsilçinin mətbuat xidməti məlumat yayıb. T.Doğanın klubla müqavilə müddəti başa çatıb. "Qarabağ" Tacettin Doğana göstərdiyi xidmətlərə görə təşəkkür edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Qeyd edək ki, türkiyəli tanınmış məşqçi Ziya Doğanın qardaşı olan Tacettin Doğan 2019-cu ildən "Qarabağ"da işləyirdi. O, klubda uşaq futboluna əsas cavabdeh şəxs idi.

# İlkay Gündoğan: "İstanbuldakı finalda oynayacağım üçün qürur duyuram"

***"Mançester Siti"nin yarımmüdafiəçisi İlkay Gündoğan Çempionlar Liqasının finalında "İnter"lə keçiriləcək oyunla bağlı gözləntilərini bölüşüb.***

Qol.az UEFA-nın saytına istinadən xəbər verir ki, türkəsilli almaniyalı yarımmüdafiəçi görüşün İstanbulda keçirilməsi ilə bağlı deyib:

"Türkiyə mənim valideynlərimin doğulduğu yerdir. Ona görə də bu finalda oynayacağım üçün qürur duyuram. Ailəm, dostlarım və mən bu matçı səbirsizliklə gözləyirik. Bizim heyrətamiz oyunçulardan ibarət gözəl komandamız var. Bizim qarşımıza yeni taktiki çağırışlar qoyan və bizi növbəti səviyyəyə aparmağa davam edən, həmçinin problemlərimizin həlli yollarını axtaran gözəl məşqçimiz var. Həmişə alternativlərimiz mövcuddur. Məncə, bu, çox yaxşıdır. Əgər biz psixoloji cəhətdən güclü olsaq və son bir neçə həftədəki kimi davransaq, bizi məğlub edə bilməyəcəklər.Düşünmürəm ki, komandamız indi bu turnirdə qalib gəlməkdən daha güclü nəyəsə can atır. Çempionlar Liqasını qazanmaqdan başqa istədiyimiz heç nə yoxdur".

Qeyd edək ki, ÇL-in finalı iyunun 10-u, İstanbulda keçiriləcək.

# Şəhriyar Məmmədyarov Maqnus Karlsenlə qarşılaşacaq

***Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov dünya çempionu Maqnus Karlsenlə qarşılaşacaq.***

"Unikal" xəbər verir ki, görüş Norveçin Stavanger şəhərində təşkil olunan "Norway Chess" turniri çərçivəsində baş tutacaq.



Qarşılaşma turnirin 8-ci turunda olacaq.